

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 mart 2026-cı il, çərşənbə axşamı № 049 (7116) Qiyməti 60 qəpik


# 41 yaşayış məntəqəsi, 80 mindən çox insan...

## Azad ərazilərdə yaşayan və fəaliyyət göstərən vətəndaşların sayı artmaqdadır






Bax səh. 2

## Əlaqələndirmə Qərargahının Xocavənddə iclası keçirilib



## YAP Bərdə rayon təşkilatının 33 illiyi qeyd olunub

Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatının təsis edilməsinin 33 illiyi münasibətilə tədbir keçirilib. Öncə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə tər gül-çiçək dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Qarabağ Regional Mədəniyyət İdarəsinin Bərdə nümayəndəliyi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Qarabağ "DOST Evi" şöbəsinin təlimçi və benefisiarları tərəfindən hazırlanmış əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yolu əks etdirən videoçarx nümayiş olunub.

Konfransda çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya geniş məruzə ilə partiya üzvlərini əlamətdar gün münasibətilə təbrik edib. O, Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasından, Yeni Azərbaycan Partiyasının formalaşmasından və xalqın bu siyasi təşkilat ətrafında sıx birləşməsindən bəhs edib. Qeyd olunub ki, bu gün də Prezident İlham Əliyevin Sədrliyi ilə Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyəti xalqın arzuları ilə vəhdət təşkil edir.

Faqət Şadlinskaya qeyd edib ki, torpaqların işğaldan azad olunması və əldə edilən böyük Qələbə xalq-iqtidar-ordu...

Bax səh. 4

## Qlobal şəhərsalma gündəliyi Bakıda müzakirə olunur

Bax səh. 2

## Azərbaycan və Səudiyyə Ərəbistanı həmrəydir...

Bax səh. 4

## Ölkəmiz qlobal reytinqdə mövqeyini yaxşılaşdırıb

Bax səh. 3

## İdxal inflyasiyasının artması ehtimalı və pul siyasətinə təsiri diqqət mərkəzindədir

Bax səh. 4

## Zelenski Trampla niyə görüşmək istəyir?

Bax səh. 7

## Bakıdan dünyaya 3 mühüm nümunə...

XXI əsr olduqca vacib bir sınaqla qarşı-qarşıyadır - əsrin əvvəlindən etibarən yeni iqtisadi-ticari nizamın proyeksiya edildiyi xətt hazırda mühüm çağırışlar ərəfəsindədir. 2020-ci ildə Avrasiyanın mərkəzində yaranan yeni konfiqurasiya möhkəmlənməyə ehtiyac duyur. Ümumiyyətlə, bu gün dünyada sülh və təhlükəsizlik amilinin oturuşması üçün bir sıra addımlar atılmalı, institusional şəkillәndirmə həyata keçirilməli, qlobal barışıq konsepsiyası ortaya qoyulmalıdır. Və bunun üçün də vacib olaraq ortaya müsbət nəticəyə köklənən nümunə, təcrübə əsas götürülməlidir. Bu təcrübə isə birmənalı şəkildə Azərbaycan təcrübəsidir.

Siyasi istqamətlərə keçməzdən öncə, bu konfiqurasiyanın əsas iqtisadi konturlarını göz önünə gətirmək lazımdır: Günümüzün dinamikası göstərir ki, Avrasiyanın gələcək iqtisadi arxitekturası müxtəlif qütblər arasında rəqabət deyil, əlaqələndirmə üzərində qurulmalıdır. Və:

- Bu mənada Azərbaycan həm Şərq istehsal sistemləri, həm də Qərb texnoloji və maliyyə mərkəzləri arasında optimal sintez yaradan unikal mövqeyə malikdir:
- Tərəflər arasında siyasi dialoqun formalaşmasına yardım edəcək unikal aktordur;
- Bölgənin lideri olaraq sabitləşdirici faktordur;
- Nəhayət, yeni ticari düzənin strateji müəlliflərindən biridir.

Beləliklə, Azərbaycan təcrübəsi qlobal təhdidlər üçün ən real çıxış yoludur...

Martın 12-dən 14-nə kimi Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusunda XIII Qlobal Bakı Forumu olduqca mühüm mesajlarla yadda qaldı. Müstəqilliyinin 35-ci ilini yaşayan Azərbaycan Respublikası ötən dövr ərzində mühüm sınaq və çağırışlarla üzləşib. Prezident İlham Əliyev Qlobal Forumdakı çıxışında bildirdi ki, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi: "Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri...

Bax səh. 3

## Dəhşətli müharibə cinayətləri - mülki insanların faciələri



# Əlaqələndirmə Qərargahının Xocavənddə iclası keçirilib





Əlaqələndirmə Qərargahının növbəti iclası Xocavənd şəhərində keçirilib.

Azərbaycan Prezidenti Administrasiyasının və Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Xocavənd şəhərində Qərargahın növbəti iclası keçirilib. İclasda çıxış edən Samir Nuriyev işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış prosesinin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin və ölkənin uzunmüddətli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olduğunu bildirib.

S.Nuriyev qeyd edib ki, bu proses yalnız ərazilərin fiziki baxımdan bərpasını deyil, həmin torpaqlarda həyatın yenidən qurulmasını, dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunmasını və keçmiş məcburi köçkünlərin doğma yurdlarına ləyaqətli qayıdışını nəzərdə tutan kompleks yanaşmanı əhatə edir. İşğaldan azad edilmiş ərazilərdə son illər həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işlərində əsas prioritet baza infrastrukturunun yaradılması olub. Elektrik enerjisi, qaz və su təchizatı infrastrukturunun yenidən qurulması, yolların, körpülərin və tunellərin inşası regionda həyatın bərpası üçün ilkin zəruri şəraiti formalaşdırıb. Hazırkı mərhələdə isə dövlət tərəfindən ayrılan resursların mühüm hissəsi yaşayış fondunun genişləndirilməsinə, fərdi və çoxmənzilli evlərin tikintisinə və bərpasına yönəldilir. Bununla yanaşı, məktəblər, uşaq bağçaları, tibb məntəqələri və dövlət xidmətləri mərkəzləri kimi sosial obyektlərin fəaliyyətlərinin təşkili paralel şəkildə həyata



keçirilir. Bu yanaşma öz doğma torpaqlarına qayıdan keçmiş məcburi köçkünlərin ilk gündən normal həyat şəraitinə sürətli adaptasiyasına imkan verir.

Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərdə bugünədək ümumilikdə 41 yaşayış məntəqəsinin tikilərək və bərpa edilərək istifadəyə verildiyini, həmin ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının təmin olunduğunu vurğulayan qərargah rəhbəri görülən işlər nəticəsində hazırda dövlət və özəl sektorlarda işləyənlər, həmçinin təhsil alanlar da daxil olmaqla, işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 80 mindən çox insanın yaşadığını və fəaliyyət göstərdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

Bildirilib ki, qarşıdakı dövrdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində köç prosesi daha da sürətlənəcək və Böyük Qayıdış Proqramının miqyası genişlənəcək. İşğaldan azad edilmiş ərazilərdə layihələrin icrası Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramda nəzərdə tutulmuş tədbirlər ardıcıl şəkildə icra olunur, bu isə qarşıya qoyulan məqsədlərə mərhələli şəkildə nail olunmasına və bərpa-quruculuq prosesinin uğurla davam etdirilməsinə imkan yaradır.

S.Nuriyev vurğulayıb ki, məskunlaşmanın dayanıqlılığı birbaşa məşğulluq imkanlarının yaradılması ilə bağlıdır. Bu baxımdan yeni iş yerlərinin açılması, kənd təsərrüfatı, xidmət sektoru, istehsal, tikinti və logistika sahələrində fəaliyyət imkanlarının genişləndirilməsi, həmçinin sahibkarlığın təşviqi, investorların cəlb olunması və dəstək mexanizmlərinin tətbiqi mühüm əhəmiyyət daşıyır.

Qərargah rəhbəri tarixi, mədəni və dini abidələrin bərpasının Böyük Qayıdış prosesinin mühüm istiqamətlərindən biri olduğunu qeyd edərək, bunun milli-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, habelə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində görülən işlər barədə məlumatlar təqdim olunub. Məskunlaşma, iqtisadi fəallığın artırılması, sahibkarlığın inkişafı və mədəni irsin bərpası istiqamətində aparılan işlərə dair məruzələr dinlənilib.

İclasın yekununda Azərbaycan Prezidenti tərəfindən müəyyən edilmiş strateji vəzifələrin səmərəli icrası üçün zəruri tədbirlərin vaxtında həyata keçirilməsinin vacibliyi vurğulanıb. Qeyd olunub ki, hər bir məsələ üzrə konkret addımlar atılmalı və verilmiş tapşırıqlar operativ şəkildə icra olunmalıdır.

İclasdan sonra Əlaqələndirmə Qərargahının üzvləri Xocavənd rayonu ərazisində həyata keçirilən bərpa, infrastruktur və iqtisadi layihələrlə, o cümlədən Xocavənd şəhərinin Baş planı ilə tanış olublar. Əlaqələndirmə Qərargahının üzvləri Xocavənd şəhərində təmir olunmuş fərdi evə baxış keçiriblər. Qərargahın üzvlərinə evdə yaradılan şərait barədə məlumat verilib. Əlaqələndirmə Qərargahının üzvləri tərəfindən Xocavənd rayonunda “İmperium Agro MMC” bağçılıq təsərrüfatına baxış keçirilib. Xocavəndə səfər çərçivəsində Qərargahın üzvləri rayonun Quzeyxırman kəndində aparılan təmir-bərpa işləri ilə tanış olublar.

Xocavəndə səfər çərçivəsində rayonun Qırmızı Bazar qəsəbəsində yerləşən günəbaxan yağları zavoduna baxış keçirilib.

Tədbirdə müəssisənin fəaliyyəti və yerli iqtisadiyyata verdiyi töhfə haqqında məlumat dinlənilib.

## Möminə xatun türbəsi bərpa olunacaq

Prezident İlham Əliyev Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası işlərinə vəsait ayrılması haqqında Sərəncam imzalayıb. Sənədə əsasən, XII əsr Azərbaycan memarlığının görkəmli nümunəsi olan Möminə xatun türbəsinin kompleks bərpası və konservasiyası işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9 milyon 566 min manat vəsait ayrılıb.

## Azərbaycan Prezidenti Kasım-Jomart Tokayevi təbrik edib

Prezident İlham Əliyev həmkarı Kasım-Jomart Tokayevi Qazaxıstan Respublikasının yeni Konstitusiyası üzrə referendumun müvəffəqiyyətlə başa çatması münasibətilə təbrik edib. Dövlətimizin başçısının ünvanladığı məktubda qeyd edilir ki, referendumun nəticəsi - yeni Konstitusiyanın qəbulu xalqınızın birliyinin və milli iradəsinin bariz ifadəsi, Sizə olan böyük inam və etimadının təzahürü, Qazaxıstanın rifahı naminə yürütdüyünüz qətiyyətli siyasətə dəstəyinin göstəricisidir. Məktubda xalqlarımızın ortaq tarixindən, zəngin mənəvi dəyərlərindən güc alan, dostluğa, qardaşlığa, qarşılıqlı etimad və dəstəyə əsaslanan Azərbaycan-Qazaxıstan əlaqələrinin, strateji tərəfdaşlığı və müttəfiqliyinin bundan sonra da möhkəmlənməkdə davam edəcəyi vurğulanır.

## Karantin rejiminin müddəti uzadıldı

Baş nazir Əli Əsədovun imzaladığı Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 iyul saat 06:00-dək uzadılıb.

# Qlobal şəhərsalma gündəliyi Bakıda müzakirə olunur

Dünyada müşahidə edilən kataklizmlər fonunda qlobal miqyasda şəhərsalma və mənzil məsələlərinin aktuallığı heç vaxt olmadığı qədər artıb. Təsadüfi deyildir ki, bu sahədə yaranan çağırışlar XIII Qlobal Bakı Forumunda da müzakirə olunub.

O cümlədən paytaxtımızın ev sahibliyi ilə keçirilən beynəlxalq tədbirdə “Mənzil məsələləri üzrə qlobal əməkdaşlıq: WUF13 üçün perspektivlər” mövzusunda ayrıca panel iclas baş tutub. İclasda vurğulanıb ki, şəhərsalma və mənzil məsələləri dünyanın müxtəlif regionlarında fərqli xüsusiyyətlərə malikdir. Məsələn, qlobal cənub ölkələrində əsas problemlər qeyri-formal yaşayış məntəqələri və infrastruktur çatışmazlığı ilə bağlıdırsa, qlobal şimal ölkələrində maliyyələşmə mexanizmləri və mənzil qiymətlərinin artması nəticəsində əlçatanlığın azalması müşahidə olunur. Şərqi Avropa və Mərkəzi Asiya kimi regionlar bu iki tendensiyanın eyni vaxtda müşahidə olunduğu məkanlardır və bu səbəbdən mənzil problemlərinin həlli üçün vahid yanaşma mövcud deyil. Buna görə də şəhərsalma və mənzil məsələlərinin həllində fərqli yanaşmaların tətbiqi, həmçinin ayrı-ayrı ölkələrin və şəhərlərin müsbət təcrübəsi mütləq qaydada nəzərə alınmalıdır.

**Azərbaycanın həssas yanaşması**

Uğurlu inkişaf modelinə malik olan Azərbaycanın ayrı-ayrı istiqamətlərdə qazandığı nailiyyətlər və təcrübə beynəlxalq səviyyədə diqqətlə izlənilir və bir sıra hallarda model kimi qəbul olunur. Həmçinin ölkəmizin şəhərsalma məsələlərinə həssas yanaşması da beynəlxalq səviyyədə təqdir olunur. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi bu məsələnin ölkə gündəliyinin prioritetləri sırasında yer aldığını bir daha təsdiqləyir.

Bu gün Azərbaycanda şəhərsalma qədimliklə müasirliyin orijinal vəhdətində inkişaf etdirilir ki, bu da beynəlxalq səviyyədə böyük maraqla izlənilir. Form çərçivəsində aparılan müzakirələrdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13 üzrə milli koordinator Anar Quliyev qeyd edib ki, şəhərin mərkəzində yerləşən və UNESCO-nun Dünya irsi siyahısına daxil edilmiş İçərişəhər də əsrlər boyu formalaşmış tarixi urban mühitin nümunəsidir. Onun sözlərinə görə, qədim dövrlərdən etibarən insanlar bu ərazidə yaşamaq və işləmək üçün rahat şəhər mühiti yaratmağa çalışıblar.




Anar Quliyev vurğulayıb ki, bu ənənələr bu gün də davam etdirilir və müasir şəhərsalma yanaşmaları beynəlxalq standartlar, qlobal trendlər və UN-Habitat kimi beynəlxalq qurumların tövsiyələri əsasında inkişaf etdirilir.

**Beynəlxalq birlik üçün yaxşı nümunə**

Azərbaycanda şəhərsalma islahatları, xüsusilə də işğaldan zərər çəkmiş ərazilərdə yaşayış məntəqələrinin bərpası sahəsində qazandığı təcrübə beynəlxalq birlik üçün yaxşı nümunədir. 2024-cü ilin əvvəlində təqdim olunan Bakı şəhərinin Baş Planı ölkəmizin müasir şəhərsalma çağırışlarına yanaşmasını aydın şəkildə nümayiş etdirir. Bakı şəhərinin 2040-cı ilə qədərki dövrdə inkişafına dair Baş Planında bir sıra mühüm prinsiplər əsas götürülüb.

Təqdimatda bildirildiyi kimi, Baş Plana uyğun olaraq vahid mərkəzli aqlomerasiya olan Bakı növbəti inkişaf mərhələsində rahat, ekoloji cəhətdən təmiz, mobil, insanyönümlü və inklüziv çoxmərkəzli şəhərə çevriləcək. Baş Plan həmçinin ərazi zonalaşdırılması, əsaslı tikinti, nəqliyyat və sosial infrastruktur, kommunal sistemlər, eyni zamanda ərazilərin abadlaşdırılması tədbirləri, habelə postsənaye dövrünə keçidi təmin edəcək yeni şəhər iqtisadiyyatı məsələlərini özündə ehtiva edir. Bütövlükdə, 4 vacib hədəfə əsaslanan Baş Plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə 2040-cı ilədək olan müddət ərzində paytaxtın əsas inkişaf perspektivlərini müəyyənləşdirir.

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Bütövlükdə, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. “Böyük Qayıdış”a dair I Dövlət Proqramına müvafiq qaydada “yaşıl enerji” zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanıb.

**Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda ilk dəfə**

2026-cı ilin may ayında Bakıda keçiriləcək Dünya Şəhər Forumunda (WUF13) iştirak üçün artıq 169 ölkədən təxminən 15 minə yaxın iştirakçı qeydiyyatdan keçib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13 üzrə milli koordinator Anar Quliyev bildirib ki, iştirakçıların təxminən 30 faizi yerli və regional idarəetmə orqanlarını təmsil edir. Bu da şəhərlərin qlobal urbanizasiya problemlərinin həllində artan rolunu göstərir.

Bakıda təşkil ediləcək Ümumdünya Şəhərsalma Forumu Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda ilk dəfə keçiriləcək. Bu, regionun artan əhəmiyyətini və qlobal şəhərsalma gündəliyinin formalaşmasında rolunu əks etdirir. Anar Quliyev panel iclasında aparılan müzakirələr zamanı bildirib ki, bu forumun əsas məqsədi milli təcrübələrin nümayiş etdirilməsi, bilik mübadiləsinin aparılması və mənzil problemlərinin həllində inklüziv şəhər inkişafını təşviq edən qabaqcıl beynəlxalq təcrübələri öyrənməkdir. Bu tədbir Azərbaycan üçün öz mənzil təşəbbüslərini təqdim etmək və beynəlxalq əməkdaşlığı daha da gücləndirmək imkanı verəcək. Qurum rəsmisinin sözlərinə görə, əhalinin mənzil ehtiyaclarına cavab vermək məqsədilə Azərbaycan 2016-cı ildə Mənzil İnşaatı Dövlət Agentliyi təsis edib. Dövlətin mənzil siyasətinin əsas istiqamətlərindən biri isə azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda ərazilərin bərpası və əhalinin köçürülməsidir.

Panel müzakiirələrində iştirak edən digər qonaqlar da paytaxtımızda WUF13-ün böyük uğurla keçəcəyinə əminliklərini bildiriblər. “Dünyada 1,1 milyard insan gecəqondularda və qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır, 300 milyon insan evsizdir. Bu o deməkdir ki, biz böyük investisiyalara və düzgün siyasi qərarlara ikiqat səylə yanaşmalıyıq”. Bu sözləri BMT Baş Assambleyasının 73-cü Sessiyasının prezidenti, Ekvadorun sabiq xarici işlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü Maria Fernanda Espinoza Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına həsr olunan brifinq zamanı deyib.

Espinoza bildirib ki, bu problem siyasət, investisiya, layihələndirmə və şəhər planlaşdırması sahələrində birgə qərarlar tələb edir. Bu böhran insan tərəfindən yaradılıb və buna görə də onun həlli də insan tərəfindən tapılmalıdır: “Azərbaycanın qonaqpərvərliyinin, güclü logistika imkanlarının, Bakı şəhərinin zəngin tarixinin və mədəniyyətinin şahidi olaraq əminəm ki, Ümumdünya Şəhərsalma Forumu burada böyük uğurla keçiriləcək”.

***Mübariz FEYİZLİ***

# Bakıdan dünyaya 3 mühüm nümunə...

## Azərbaycan təcrübəsi: məsuliyyət, təmkin və qətiyyət...

XXI əsr olduqca vacib bir sınaqla qarşı-qarşıyadır - əsrin əvvəlindən etibarən yeni iqtisadi-ticari nizamın proyeksiya edildiyi xətt hazırda mühüm çağırışlar ərəfəsindədir. 2020-ci ildə Avrasiyanın mərkəzində yaranan yeni konfiqurasiya möhkəmlənməyə ehtiyac duyur. Ümumiyyətlə, bu gün dünyada sülh və təhlükəsizlik amilinin oturuşması üçün bir sıra addımlar atılmalı, institusional şəkilləndirmə həyata keçirilməli, qlobal barışıq konsepsiyası ortaya qoyulmalıdır. Və bunun üçün də vacib olaraq oratya müsbət nəticəyə köklənən nümunə, təcrübə əsas götürülməlidir. Bu təcrübə isə birmənalı şəkildə Azərbaycan təcrübəsidir.

Siyasi istiqamətlərə keçməzdən öncə, bu konfiqurasiyanın əsas iqtisadi konturlarını göz önünə gətirmək lazımdır: Günümüzün dinamikası göstərir ki, Avrasiyanın gələcək iqtisadi arxitekturası müxtəlif qütblər arasında rəqabət deyil, əlaqələndirmə üzərində qurulmalıdır. Və:

- Bu mənada, Azərbaycan həm Şərq istehsal sistemləri, həm də Qərb texnoloji və maliyyə mərkəzləri arasında optimal sintez yaradan unikal mövqeyə malikdir:
- Tərəflər arasında siyasi dialoqun formalaşmasına yardım edəcək unikal aktordur;
- Bölgənin lideri olaraq sabitləşdirici faktordur;
- Nəhayət, yeni ticari düzənin strateji müəlliflərindən biridir.

Beləliklə, Azərbaycan təcrübəsi qlobal təhdidlər üçün ən real çıxış yoludur...



## Milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi

Martın 12-dən 14-nə kimi Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən “Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması” mövzusunda XIII Qlobal Bakı Forumu olduqca mühüm mesajlarla yadda qaldı. Müstəqilliyinin 35-ci ilini yaşayan Azərbaycan Respublikası ötən dövr ərzində mühüm sınaq və çağırışlarla üzləşib. Prezident İlham Əliyev Qlobal Forumdakı çıxışında bildirdi ki, biz dünya miqyasında nadir bir təcrübəyə malikik - milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi: “Təqribən 30 il ərzində ərazimizin təxminən 20 faizi işğal altında olmuşdur. Biz beynəlxalq ictimaiyyət tərəfindən bu məsələyə lazımi diqqətin göstərilməməsindən və münaqişə ilə məşğul olmalı olan bəzi beynəlxalq aktorların selektiv yanaşmasından əziyyət çəkirdik. Təxminən 30 il ərzində BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasını tələb edən qətnamələri yalnız kağız üzərində qalırdı. Beləliklə, bu bir təcrübədir, amma bu, mənfi təcrübə olmuşdur”.

Bəli, Bakı bu mənfi təcrübəni uğurla keçdi. Ümumiyyətlə, bu mənfi tendensiyanın bu qədər uzanması da subyektiv amillərdən asılı idi - beynəlxalq qərarlar Ermənistan tərəfindən yerinə yetirilmirdi, tələblərə qulaq asılmırdı. Azərbaycan isə təmkinli halda problemin sülh və danışıqlar yolu ilə həllində israr edirdi - yeganə şərt ərazi bütövlüyünün təmini, süverenliyin bərpası idi. biz beynəlxalq hüquq çərçivəsində həll prosesini dəstəkləyirdik. İşğala məruz qalan ölkə olduğumuz halda qlobal təhlükəsizliyin təmini uğrunda dinc yolla mübarizə aparırdıq. Bu olduqca vacib bir amil, vacib bir təcrübə idi - Bakı qlobal beynəlfxalq hüququn təmini üçün müstəvi formalaşdırmışdı. Amma təəssüf ki, kənar faktorlar (məsələn, ATƏT-in Minsk qrupu) bu real mənzərədən beynəlxalq hüququn təməllərinin möhkəmlənməsi üçün istifadə etmədi. Və beləliklə....

## Ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq

Azərbaycan sülh çağırışları ilə paralel olaraq ərazi itkisi ilə barışmayacağını da elan edirdi. İşğalın davam etdiyi təxminən 30 il ərzində biz bu alternativ yolu özümüz üçün açıq saxlayırdıq - bu hüququ bizə yenə də beynəlxalq hüquq verirdi: BMT Nizamnaməsi. 30 ilə yaxın davam etmiş danışıqlar prosesinin nəticəsizliyi sonunda rəsmi Bakını öz torpaqlarını güc yolu ilə azad etimək hüququndan istifadəyə yönləndirdi. Prezident İlham Əliyev forumdakı çıxışında bildirdi: “2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi güc vasitəsilə azad etmək təcrübəsini qazandıq və düşünürəm ki, bu da mühüm göstəricidir. Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi”.

Azərbaycanın apardığı müharibə bütün parametrləri üzrə haqq - ədalət savaşı idi:

- Beynəlxalq hüquq:
- Qarşı tərəfin 30 ilə yaxın dövrdə qeyri-adekvat davranışı;
- Ermənistanın yeni işğal arzusu;
- Vasitəçi strukturun prosesə ədalətli yanaşma sərgiləməməsi bu müharibəyə imkan verirdi. Beləliklə, Bakı torpaqlarını işğaldan azad etməklə dünyaya mühüm bir mesaj verdi - regional sülhün və təhlükəsizliyin əldə olunması üçün güc tətbiqi qaçılmaz idi.

Qeyd edildiyi kimi, 2020-ci ildə cəmisi 44 günə, 2023-cü ildə isə cəmisi 23 saata işğal altında olan torpaqlarımız tamamilə işğaldan azad edildi. Bakı ərazi bütövlüyünü və suverenliyini bərpa etdi. Bu addım da dünya üçün əsaslı bir təcrübədir...

## Sülhdən daha yaxşı heç nə yoxdur...

Müharibədə qalib gəlmiş, Ermənistanın silahlı qüvvələrini darmadağın etmiş Azərbaycan məhz bu anda bölgənin gələcəyinə, perspektivinə təsir göstərəcək, yeni strateji imkanlarını ortaya qoymaq üçün fürsət yaradacaq yeni bir təşəbbüslə çıxış etdi - sülh təşəbbüsü. Qeyd edək ki, 1991-ci ildə SSRİ-nin dağılması ilə müstəqillik qazanan Azərbaycan və Ermənistan yeni dövrdə ilk dəfə sülh şəraitində yaşamaq imkanı qazanacaqdı. Paralel olaraq son 50 ilə yaxın bir dövrdə Cənubi Qafqaz yeni iqtisadi nizamda müstəqil və konfrantasiyasız iştirak hüququ əldə edirdi. Bu təşəbbüsün və təcrübənin də müəllifi Azərbaycan idi. Bakı yeni sülh təşəbbüsü ilə bölgənin imicini, simasını dəyişir, imkanlarını ortaya qoyur, nəhayət, regiona yeni bir gələcək qurmaq imkanı tanıyırdı. Prezident İlham Əliyev bildirib ki, üçüncü təcrübə isə sülh təcrübəsidir - sülhə necə nail olmaq olar: “Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur”.

Beləliklə, sülh təcrübəsi gələcək üçün ən real şansdır. Bu gün Azərbaycan Cənubi Qafqazı Avrasiyanın mərkəzinə çevirən əsas güc kimi çıxış edir. Bakı sülhü abstrakt şüar yox, konkret siyasi və iqtisadi mexanizmə çevirərək regionun gələcəyini yenidən dizayn edir. Formalaşan yeni reallıqda qarşıdurma yox, əməkdaşlıq qalib gəlir. Cənubi Qafqazın taleyi artıq keçmiş münaqişələrin girovu deyil. Azərbaycanın təşəbbüsləri sayəsində region qlobal sabitliyə töhfə verən, yeni imkanlar yaradan strateji məkana çevrilir. Bu yol sülh yoludur və bu yol açıqdır.

## İqtisadi davamlılıq siyasi dialoqu da gücləndirir: Bakının qlobal statusu...

Sülhün iqtisadi mənfəəti isə siyasi mənffəəti tam sürətlə davam etdirir. Orta Dəhlizin genişlənməsi (TRIPP), Rəqəmsal İpək Yolunun formalaşması, yeni liman-logistika zəncirinin sürətlə inkişafı Azərbaycana yalnız tranzit deyil, tənzimləyici rol qazandırır. Bu rol həm də Bakının təhlükəsizlik konsepsiyası ilə uzlaşır: regionda siyasi sabitliyin bərpası, sərhəd kommunikasiya risklərinin aradan qaldırılması və inteqrasiya yönümlü diplomatiyanın gücləndirilməsi Avrasiyanın bütöv inkişaf modelinə xidmət edir.

Beləliklə, Azərbaycan siyasi sabitliyin təminatçısı, qlobal logistik şəbəkələrin ayrılmaz hələqəsi, enerji təhlükəsizliyinin əsas dayağı və müxtəlif sivilizasiyaları birləşdirən dialoq platforması rolunu uğurla icra edir. Azərbaycan məhz bu çoxşaxəli funksiyaları yerinə yetirdiyi üçün Avrasiyanın yeni mərkəzi kimi çıxış edir.

Bakı bu gün:

- Şərq ilə Qərbi iqtisadi və siyasi xətt üzrə birləşdirir;
- Mərkəzi Asiyanı Avropa ilə bağlayır;
- Regionda qlobal təhlükəsizlik konturlarını formalaşdırır;
- Yeni dialoq və tərəfdaşlıq arxitekturası yaradır;
- sabitlik və davamlı inkişafın əsas təminatçısına çevrilir.

Bakı bu gün sadəcə Azərbaycanın paytaxtı kimi deyil, bütövlükdə Avrasiyanın ritmini müəyyən edən, qitələrin inkişaf tempini tənzimləyən, iqtisadi və siyasi güc mərkəzlərini birləşdirən qlobal aktorlardan biri kimi tanınır və qiymətləndirilir. Bizim təcrübəmiz isə bütün dünya üçün bir nümunədir...

***Pərviz SADAYOĞLU***

# Azərbaycan qlobal reytinqdə mövqeyini yaxşılaşdırıb




Bu ilin fevral ayında Azərbaycan sabit genişzolaqlı internetin orta sürətinə görə, əvvəlki ayla müqayisədə 1 pillə irəliləyərək 153 ölkə arasında 80-ci yerdə qərarlaşıb. “Speedtest Global Index” hesabatına istinadla xəbər verir ki, ölkədə sabit genişzolaqlı internetin orta sürəti 91,27 Mbps təşkil edib. Bu göstərici bir il əvvəl qeydə alınan 69,15 Mbps ilə müqayisədə 32 faiz artım deməkdir.

Azərbaycan sabit genişzolaqlı internetin sürətinə görə Türkiyə (77,68 Mbps), İran (23,53 Mbps), Gürcüstan (44,35 Mbps), Ermənistan (82,77 Mbps), Belarus (90,78 Mbps), Qazaxıstan (88,13 Mbps), Qırğızıstan (86,25 Mbps) və Tacikistanı (41,85 Mbps) geridə qoyub. Reytinqdə sabit genişzolaqlı internetin sürətinə görə birinci yeri 420,92 Mbps göstərici ilə Sinqapur tutub. Siyahının sonuncu pilləsində isə 3,86 Mbps ilə Kuba qərarlaşıb.

Fevral ayında Azərbaycan mobil internetin sürətinə görə də mövqeyini yaxşılaşdıraraq əvvəlki ayla müqayisədə 2 pillə irəliləyib və 94,95 Mbps orta sürətlə 104 ölkə arasında 50-ci olub. Mobil internetin sürətinə görə ilk yerdə 681,18 Mbps göstərici ilə Birləşmiş Ərəb Əmirlikləri qərarlaşıb. Siyahının sonuncu pilləsində isə 15,71 Mbps sürətlə Boliviya yer alıb. Hesabatda şəhərlər üzrə göstəricilər də açıqlanıb. Belə ki, Bakı şəhəri sabit genişzolaqlı internetin sürətinə görə əvvəlki ayla müqayisədə 2 pillə irəliləyərək 91,01 Mbps sürətlə 201 şəhər arasında 113-cü yerdə qərarlaşıb. Şəhərlərin sabit genişzolaqlı internet reytinqinə 434,61 Mbps göstərici ilə Əbu-Dabi başçılıq edir. Siyahının sonuncu pilləsində isə 2,94 Mbps sürətlə Hələb şəhəri yer alıb. Mobil internetin sürətinə görə isə Bakı 113,56 Mbps göstərici ilə 150 şəhər arasında 82-ci yerdə qərarlaşıb və əvvəlki ayla müqayisədə mövqeyini qoruyub saxlayıb. Şəhərlər arasında mobil internetin sürətinə görə ilk yeri 745,89 Mbps göstərici ilə Əbu-Dabi tutur. Siyahının sonuncu pilləsində isə 13,79 Mbps sürətlə Boliviyanın La-Pas şəhəri qərarlaşıb.

**“Keçid” qrupundan “İnkişaf etmiş” qrupa**

Azərbaycanda rabitə və telekommunikasiya sektorunun inkişafı istiqamətində yürüdülən siyasət və aparılan əhatəli tədbirlər ölkəmizdə internetə çıxış imkanlarının və genişzolaqlı sürətin artmasına səbəb olmaqdadır. Bir müddət əvvəl Mobil Rabitə Assosiasiyası (GSMA) tərəfindən dərc edilən “Mobile Connectivity Index” hesabatında Azərbaycan 173 ölkə arasında orta mövqedə qərarlaşıb. Ölkəmiz “Mobile Connectivity Index” üzrə “Keçid” (Transitioner) qrupundan, “İnkişaf etmiş” (Advanced) qrupuna daxil edilib. Mövcud qlobal dəyərləndirmə Azərbaycanda orta internet sürətinin dünyanın orta statistik göstəricilərinə bərabər olduğunu göstərir.

Əldə edilən mühüm nəticə ölkəmizdə İKT sektorunun inkişaf etdirildiyini, rəqəmsal dövlət quruculuğunun komponetlərinin yaradıldığını və geniş tətbiq edildiyini göstərir. Bütün bunların nəticəsidir ki, son illər İT və innovasiyalar üzrə hesabatlarda ölkəmizin mövqeyi yüksəlir. Dünya Bankı (DB) tərəfindən 2024-cü ildə dərc edilmiş qlobal tədqiqat sənədində Azərbaycan “4G+” mobil şəbəkə infrastrukturun vəziyyətinə görə, region ölkələri sırasında əlverişli dövlətlər qrupunda yer alıb. Sənəddə qeyd edilir ki, əhalinin 94 faizi genişzolaqlı internetlə əhatə olunub.

**İKT-nin İnkişaf İndeksi üzrə yaxşı nəticə**



“Qlobal İnnovasiya İndeksi”ndə ölkəmiz innovasiya fəaliyyətinin səmərəliliyinə görə, irəliləyiş əldə edib və göstəricilərini 4 pillə yaxşılaşdıraraq 89-cu yerdə qərarlaşıb. Azərbaycan “innovasiya resursları” alt indeksi üzrə isə 76-cı yerdə qərarlaşıb. Qeyd edək ki, “innovasiya resursları” və “innovasiya nəticələri” çox mühüm əhəmiyyətə malik indekslər olmaqla bir-birinə qarşılıqlı olaraq bağlıdır. Həmin göstəricilər üzrə irəliləyiş Azərbaycanın bu sahədə müasir institutlar yaratdığını, insan kapitalını, elm və təhsil potensialını inkişaf etdirdiyini, səmərəli biznes modelləri qurduğunu təsdiq edir. Ölkəmiz digər indikatorlar olan “institusional mühit” istiqaməti üzrə 54-cü, “hökumətin səmərəliliyi” göstəricisi üzrə 58-ci yerə layiq görülüb. Azərbaycan “biznes mühiti” indikatoru üzrə 17-ci, “biznesin aparılması siyasəti” üzrə isə 22-ci yeri tutmaqla Avropa məkanında ən innovativ imkanlara malik ölkələr qrupuna daxil olub.

Digər qlobal reytinq hesabatlarında, o cümlədən Dünya İqtisadi Forumunun “Qlobal İnformasiya Texnologiyaları”, BMT-nin “E-Hökumət müayinəsi” hesabatlarında mövqeyini yaxşılaşdıraraq bir neçə pillə yüksəlib. Qeyd edək ki, həmin reytinqlərdə 10-dan artıq İKT göstəricisi, qlobal, regional və milli səviyyədə müqayisəli rabitə göstəriciləri təhlil edilir.

Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən dünya ölkələrində informasiya-kommunikasiya texnologiyaları sahəsində inkişaf səviyyəsinin araşdırılmasına dair hesabatda da ölkəmiz əhəmiyyətli dərəcədə mövqeyini yaxşılaşdırmağa nail olub. Hesabatda Azərbaycan İKT-nin İnkişaf İndeksi üzrə hesabatında dünya ölkələri arasında 65-ci yeri tutub.

**Kibertəhlükəsizlik indeksində layiqli reytinq**

Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) ötən ilin sonlarında dərc etdiyi “Qlobal kibertəhlükəsizlik indeksi 2024” (Global Cybersecurity Index. 2024) hesabatında da Azərbaycan 93,76 xal toplamaqla öz mövqeyini yüksəldib.

194 ölkənin 20 indikator üzrə qiymətləndirilməsinin aparıldığı hesabata əsasən, son 4 ildə kibertəhlükəsizlik sahəsində dünya ölkələrinin orta reytinq göstəricisi təxminən 20 faiz yüksəlib və qlobal orta göstərici 65,7 xala çatıb. Dünya üzrə ən maksimum nəticəni, yəni mümkün maksimum 100 xaldan 99-100 balı toplayan ölkələr Türkiyə, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Cənubi Koreya, Danimarka, Finlandiya, İndoneziya, İtaliya, Misir, Mavritaniya, Qatar və Səudiyyə Ərəbistanı olub. 90-95 xal arası nəticə göstərən ölkələr arasında digər inkişaf etmiş dövlətlər, o cümlədən Azərbaycan yer alıb.

Respublikamızın qlobal İT hesabatlarında mövqeyini yaxşılaşdırması açıq fiberoptik kanallara çıxış imkanlarını yaxşılaşdırmağa, həmçinin informasiya təhlükəsizliyi ekosistemini möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

***E.CƏFƏRLİ***

# YAP Bərdə rayon təşkilatının 33 illiyi qeyd olunub

Yeni Azərbaycan Partiyası (YAP) Bərdə rayon təşkilatının təsis edilməsinin 33 illiyi münasibətilə tədbir keçirilib. Öncə tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə tər gül-çiçək dəstələri qoyub, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər. Sonra Qarabağ Regional Mədəniyyət İdarəsinin Bərdə nümayəndəliyi, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Qarabağ "DOST Evi" şöbəsinin təlimçi və benefisiarları tərəfindən hazırlanmış əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yolu əks etdirən videoçarx nümayiş olunub.

Konfransda çıxış edən YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya geniş məruzə ilə partiya üzvlərini əlamətdar gün münasibətilə təbrik edib. O, Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasından, Yeni Azərbaycan Partiyasının formalaşmasından və xalqın bu siyasi təşkilat ətrafında sıx birləşməsindən bəhs edib. Qeyd olunub ki, bu gün də Prezident İlham Əliyevin Sədrliyi ilə Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyəti xalqın arzuları ilə vəhdət təşkil edir.

Faqət Şadlinskaya qeyd edib ki, torpaqların işğaldan azad olunması və əldə edilən böyük Qələbə xalq-iqtidar-ordu









birliyinin sarsılmazlığını nümayiş etdirərək dövlətin suverenliyinin tam bərpası ilə nəticələnib. O həmçinin vurğulayıb ki, hazırda YAP Bərdə rayon təşkilatı 13 mindən çox üzvü birləşdirir. Rayon təşkilatının sədri dövlət əhəmiyyətli tədbirlərdə və müxtəlif ictimai kampaniyalarda partiya üzvlərinin fəal iştirakını xüsusi qeyd edərək onlara təşəkkür edib.

Konfransda çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru Elnarə Ənsari də tədbir iştirakçılarını təbrik edib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan sosialyönümlü dövlət siyasəti bu gün də uğurla davam etdirilir. Elnarə Ənsari qeyd edib ki, rayonun ictimai-siyasi həyatında fəallığın daha da artırılması, vətəndaş təşəbbüslərinin dəstəklənməsi və xüsusilə gənclərin cəmiyyət həyatında iştirakının təşviqi istiqamətində Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının fəaliyyəti mühüm əhəmiyyət daşıyır.

Elnarə Ənsari, həmçinin YAP Bərdə rayon təşkilatı ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin Qarabağ "DOST Evi" filialı arasında səmərəli əməkdaşlığın mövcud olduğunu vurğulayıb və bu əməkdaşlığın sosial həmrəyliyin möhkəmləndirilməsinə, inklüziv dəyərlərin təşviqinə mühüm töhfə verdiyini bildirib.

Konfransda çıxış edən YAP fəalları - şəhid anası Mehparə Qəribova, Rayon Ağsaqqallar Şurasının sədri Yaşar Zamanov, Bərdə Rayon Mərkəzi Xəstəxanasının direktoru Vüsal Məmmədov və rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Kəmalə Rəfibəyli çıxış edərək böyük uğurlara və qələbələrə imza atan Yeni Azərbaycan Partiyasının üzvü olmaqdan qürur duyduqlarını bildiriblər.

Konfrans çərçivəsində YAP fəallarından bir qrupuna rayon təşkilatının fəxri fərmanları təqdim olunub, partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri verilib. Eyni zamanda, bir qrup yubilyar və gənc fəal rayon təşkilatının qiymətli hədiyyələri ilə təltif olunub.

Rəsmi hissənin sonunda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Konfrans Qarabağ Regional Mədəniyyət İdarəsinin Bərdə nümayəndəliyi tərəfindən təşkil olunmuş konsert proqramı ilə başa çatıb.

# Azərbaycan və Səudiyyə Ərəbistanı həmrəydir...



## Hər iki ölkə regionda eskalasiyanın qarşısının alınmasını vacib hesab edir

Yaxın Şərq regionunda, xüsusilə İranda baş verən hadisələr Azərbaycanın diqqət mərkəzindədir. Mövcud vəziyyət bütün region ölkələri üçün riskləri artırır. Çünki münaqişənin genişlənməsi qonşu ölkələr üçün təhlükələri istisna etmir. Azərbaycan proseslərlə bağlı müxtəlif ölkələrlə, o cümlədən region dövlətləri ilə sıx təmasdadır. Bu baxımdan, son vaxtlar dost ərəb ölkələri ilə də diplomatik təmaslar güclənib.

**Nazirlərin telefon söhbəti...**

Yeri gəlmişkən, qeyd edək ki, martın 15-də Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri şahzadə Feysəl bin Fərhan Əl Səud Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova zəng vurub. Nazirlər Yaxın Şərqdə mövcud təhlükəsizlik vəziyyətini müzakirə ediblər. Bölgədə gərginliyin artmasından narahatlıq ifadə olunaraq, vəziyyətin daha da eskalasiyasının qarşısının alınmasının vacibliyi qeyd edilib. Bu çərçivədə region ölkələrinin suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsinin, habelə qonşu ölkələrin hədəfə alınmasının zəruriliyi vurğulanıb.

Telefon danışığı zamanı regional və beynəlxalq gündəliyin digər aktual məsələləri, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında mövcud əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Bununla yanaşı, nazirlər digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Ümumiyyətlə, Azərbaycanın ərəb dünyası ilə dərin tarixi-mədəni bağlılığı var. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu mənada, Səudiyyə Ərəbistanı Krallığı ilə münasibətlər xüsusi əhəmiyyətə malikdir. Azərbaycan və Səudiyyə Ərəbistanı arasında əlaqələr qarşılıqlı hörmət və sıx dostluq münasibətləri əsasında inkişaf etməkdədir. İki ölkə arasında münasibətlər güclü siyasi zəmin üzərində davam edir və qarşılıqlı inam və etimadın, iradənin olması əlaqələri bütün sahələrdə irəliyə aparmaqdadır. İki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumları və biznes nümayəndələrinin birgə səfərlərinin intensiv xarakter alması və aparılan faydalı müzakirələr ticarət, iqtisadiyyat, enerji, ətraf mühit kimi sahələrdə əməkdaşlıq




üçün yeni qapılar açmaqdadır.

Təbii ki, ölkələrimiz arasında genişmiqyaslı əlaqələrin qurulması təsadüfi deyil. Azərbaycan xarici siyasətində Səudiyyə Ərəbistanı Krallığı ilə münasibətlər xüsusi yer tutur. Azərbaycanı və Səudiyyə Ərəbistanı Krallığını qarşılıqlı hörmət və özünəməxsus qardaşlıq münasibətləri birləşdirir. Hər iki ölkəni birləşdirən ümumi İslam mirası və maraqlarımıza xidmət edən hərtərəfli əməkdaşlıq və onlar arasında tam bir koordinasiyanın olması önəmlidir. Azərbaycan və Səudiyyə Ərəbistanı arasında formalaşmış dostluq və strateji tərəfdaşlıq münasibətləri uzun illərin səmərəli əməkdaşlığına əsaslanır. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də dini-mədəni təməllər üzərində qurulub.

**Ər-Riyad hər zaman ölkəmizi dəstəkləyib**

Liderlərin siyasi iradəsi əsasında ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində çox səmərəli əməkdaşlıq edirlər. Səudiyyə Ərəbistanının hər zaman beynəlxalq təşkilatlar, xüsusilə BMT və İƏT çərçivəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi dəstək və ədalətli mövqeyi rəsmi Bakı tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı illərində Səudiyyə Ərəbistanı ölkəmizə davamlı olaraq siyasi dəstək göstərib. Səudiyyə Ərəbistanı nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə diplomatik əlaqələr qurmamışdı və bu, Azərbaycan xalqına, dövlətinə göstərilmiş böyük dəstək idi.

2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Bu, yalnız infrastruktur deyil, yeni iqtisadi model, yaşıl enerji və innovasiya əsaslı yanaşmaların tətbiqi ilə müşayiət olunur. Bu kontekstdə Səudiyyə Ərəbistanı şirkətlərinin, xüsusilə də ACWA Power şirkətinin Azərbaycanın yaşıl enerji sektorundakı fəaliyyəti yüksək qiymətləndirilir. O cümlədən, sözügedən şirkət tərəfindən həyata keçirilən "Xızı-Abşeron" külək elektrik stansiyası layihəsi Azərbaycan tarixində ilk böyükmiqyaslı xarici investisiya ilə həyata keçirilən bərpa olunan enerji layihəsi kimi olduqca dəyərlidir. Bu stansiya 240 MVt gücə malikdir, ildə 300 minə yaxın ev təsərrüfatını təmin edəcək, 400 min ton karbon emissiyasını azaldacaq və 220 milyon kubmetr təbii qazın istifadəsinin qarşısını alacaq. Bu, enerji təhlükəsizliyi ilə yanaşı, ətraf mühitin qorunmasına da ciddi töhfə verir.

**Regional təhlükəsizlik məsələlərində ortaq mövqe**

Eyni zamanda, 2024-cü ilin noyabrında ölkəmizdə keçirilmiş COP29 çərçivəsində imzalanan sənədlər sırasında "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının Energetika Nazirliyi arasında Enerji Əməkdaşlığı üzrə Yol Xəritəsi" və "Səudiyyə Elektrik Şirkəti (SEC) ilə "Azərenerji" ASC arasında elektrik enerjisi sahəsində bilik və təcrübə mübadiləsi üzrə Anlaşma Memorandumu" da vurğulanmalıdır. Bütün bunların fonunda ötən ilin dekabr ayında siyasi məsləhətləşmələrin aparılması, bir sıra sənədlərin imzalanması ölkələrimiz arasında sıx dostluq münasibətlərinin və genişlənən əməkdaşlığın göstəricisidir.

Bütövlükdə, Azərbaycan və Səudiyyə Ərəbistanı arasındakı münasibətlər iki ölkənin tarixindən, mədəniyyətindən və dinindən qaynaqlanaraq beynəlxalq səviyyədə gücլü strateji əməkdaşlığa çevrilib. Ölkələrimiz arasında artan əməkdaşlıq yalnız iki dövlətin deyil, bütün İslam dünyasının birliyini və inkişafını dəstəkləyir. Hər iki ölkə regional təhlükəsizlik məsələlərində də ortaq maraqlara malikdir. Yeni Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə artan gərginlik iki dost ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün qarşılıqlı diplomatik fəaliyyət həyata keçirirlər.

*Nardar BAYRAMLI*




# Mərkəzi Bank: İdxal inflyasiyasının artması ehtimalı və pul siyasətinə təsiri diqqət mərkəzindədir

Azərbaycan Mərkəzi Bankı (AMB) qlobal enerji qiymətlərində kəskin artımın ölkə iqtisadiyyatına təsirini şərh edib. Bankın şərhində bildirilir ki, qlobal mühitdə baş verən proseslər və onların enerji bazarlarında qiymətlərə təsiri daim izlənilir. Geosiyasi gərginlik və enerji bazarlarında qiymət artımı fonunda Azərbaycanda idxal inflyasiyasının artması ehtimalı və bunun pul siyasətinə təsiri məsələsi diqqət mərkəzindədir. Yaxın Şərqdə baş verən son hadisələr qlobal enerji bazarında təklifin daralmasına təsir göstərir və bu da enerji məhsullarının qiymətlərinin artımı ilə müşayiət olunur.

Mərkəzi Bank qeyd edir ki, hazırkı şəraitdə neft və qaz qiymətləri ilə bağlı dəqiq proqnoz vermək olduqca çətindir. Qiymətlərin kəskin artması və ya əvvəlki səviyyələrinə qayıtması əsasən mövcud münaqişənin hansı istiqamətdə inkişaf etməsindən asılı olacaq: "Enerji qiymətlərinin uzunmüddətli dinamikası əsasən fundamental amillərlə müəyyən olunur. Bu amillərə qlobal iqtisadi artım tempi, OPEC+ çərçivəsində qəbul edilən qərarlar və daha az enerji tutumlu texnologiyaların tətbiqi daxildir. Yenilənmiş makroiqtisadi proqnozlar planlaşdırıldığı kimi, may ayında ictimaiyyətə təqdim ediləcək. Yeni proqnozlar hazırlanarkən qlobal iqtisadiyyatda baş verən son proseslər də nəzərə alınacaq".

Qeyd edək ki, bu il fevralın 28-də ABŞ və İsrailin İrana zərbələr endirməsindən sonra Yaxın Şərqdə gərginlik kəskin şəkildə artıb. Bundan sonra İranın Hörmüz boğazı ətrafında hərbi mövcudluğunu artırması və bəzi dövrlərdə dəniz nəqliyyatının məhdudlaşdırılması qlobal enerji bazarlarında ciddi narahatlıq yaradıb. Dəniz yolu daşınan neftin 20 faizinin keçdiyi Hörmüz boğazında risklərin artması qlobal enerji təchizatında fasilə ehtimalını gücləndirib. Geosiyasi gərginlik fonunda Brent markalı neftin bir bareli üzrə qiyməti qısa müddətdə 100 dollara, bəzi günlərdə isə 120 dollar səviyyəsinə qədər yüksəlib.

Analitiklər hesab edir ki, münaqişənin uzanması halında neftin qiyməti 140 dollara qədər arta bilər, ən pessimist ssenarilərdə isə 200 dollar səviyyəsinə qədər yüksəlməsi istisna edilmir. Enerji qiymətlərinin uzun müddət yüksək qalması qlobal inflyasiya təzyiqlərini artırmaqla yanaşı, bəzi iqtisadiyyatlarda yüngül resessiya riskini də gücləndirə bilər.

# NOVRUZ KOSMOQONİK VƏ MİFOLOJİ XALQ TƏFƏKKÜRÜNDƏ



Xalqımızın milli bayramları onun ənənəvi mədəniyyətinin elementlərindən hesab olunur. İnsanların inancını əks etdirən bayramlardan da biri Novruzdur. Xalqımızın qədim ənənələrinin daşıyıcısı olan Novruz bayramı xalq inanclarını özündə əks etdirir. Əsasında insana, təbiətə həyat verən ünsürlər durur. Bu bayram həm xalq adət-ənənəsini, həm mifoloji dünyagörüşünü, həm də sakral bilikləri özündə cəmləyir.

Novruz qədim tarixə malik olan bayramlarımızdandır. Novruz nə bir məzhəb, nə də bir dinin bayramı deyil. Bu bayram baharın gəlməsi münasibətilə qeyd edilir. Novruz astronomik hadisə ilə bağlı gündür. Həmin gün şimal yarımkürəsində astronomik yaz girir, gecə-gündüz bərabərləşməsi baş verir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayır, bu münasibətlə şənliklər keçirirlər. Azərbaycanda, Türkiyədə, Özbəkistanda, Türkmənistanda, Qazaxıstanda, Qırğızıstanda, Albaniyada, Makedoniyada bayram kimi qeyd edilir. Hətta İraqda və Əfqanıstanda Novruz martın 21-də astronomik Günəş təqviminə əsasən, rəsmi şəkildə yeni ilin başlanğıcı kimi qeyd olunur. Lap qədimlərdən astronomik Günəş təqviminə əsasən, Novruz yeni ilin başlanğıcı sayılır. Ömər Xəyyamın "Novruznamə"sində, Səlcuqlu Vəzir Nizami Əl-Mülkün "Siyasətnaməsi"ndə, Mahmud Kaşğarlının "Divan-i-Lüğət-it-türk"ündə, Nizami Gəncəvinin əsərlərində, Məlikşahın təqvimində, Qazi Bürhanəddinin, Səfəvi şahı Şah İsmayılın divanında türklərin yaşam tərzini, adət-ənənəsini əks etdirən Novruz bayramı haqqında məlumatların yer alması bu bayramın qədim tarixə malik olduğunun sübutudur. Məlik şahın Ömər Xəyyama təqvim hazırlanması göstərişini verərkən onun qarşısına qoyduğu şərt ilin başlanğıc gününün məhz yaz gecə-gündüz bərabərliyi ilə üst-üstə düşməsi idi. Ömər Xəyyam 1074-cü ildə hazırladığı və Məlik şahın şərəfinə "Məlik şah cədvəli", "Sultan təqvimi", "Təqvimi-cəlaliyyə" adlandırdığı təqvimdə ilin başlanğıc günü Novruz bayramı ilə üst-üstə düşür. Novruz bayramı Azərbaycanda olmuş Avropa səyyahlarının xatirələrində də əks olunmuşdur. Alman alimi Adam Oleari XVII əsrin birinci yarısında Səfəvilər dövlətinin tərkibində olan Şamaxıda Novruz bayramında iştirak etmişdir. Adam Olearinin xatirələri Novruz bayramının geniş şəkildə keçirildiyini təsdiq edir. Tədqiqatçının sözlərinə görə, həmin gün astroloq Günəşin gecə ilə gündüzün bərabərləşəcəyini izləyir, həmin an çatanda isə bunu bərkdən elan edirdi.

Bu bayram həm xalq adət-ənənəsini, həm mifoloji dünyagörüşünü, həm də sakral bilikləri özündə cəmləyir. Türk xalqlarının qədim dastanlarından olan "Ergenekon" dastanında da türklərin Ergenekondan çıxdıqları gün məhz 21 marta təsadüf edir. Bu günə Hürmüz günü, yəni Tanrı günü deyilərdi. Həmin günə hazırlaşan insanlar dörd müqəddəs ünsürlə paklanardılar. Axır Çərşənbə isə ən əziz bayramlardan hesab olunardı. Həmin adətlərdən bəziləri indiyə qədər öz aktuallığını qoruyur. Məhz buna görə də bu bayramın qədim adlarından da biri Ergenekondur. Bundan başqa Novruza Bozqurd, Çağan, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Bir çox mənbələrdə bu bayramı dinlə də bağlayaraq, Novruzu "Adəmin yaradıldığı gün", "Atəşpərəstlikdən qalan bir bayram", "Yunus peyğəmbərin balığın qarnından çıxdığı gün", "Həzrəti Məhəmmədin peyğəmbərlik xələtini geydiyi gün", "İmam Əlinin xilafətə gəldiyi gün", "İmam Əlinin doğum günü", "Küsülülərin barışması üçün imam Əli tərəfindən elan edilən bayram", "İmam Əli ilə Fatimayi-Zəhranın evləndikləri gün" və başqa adlarla da göstərilir.

Novruz bayramı qabağı Çərşənbə axşamlarının keçirilməsi ilə bağlı da bir sıra maraqlı məqamlar özünü göstərir. Bəzi tədqiqlərə görə, e.ə. 487-ci ildə Şərq alimləri ayları, illəri göstərən təqvimi çərşənbə axşamında tərtib ediblər. Çərşənbə axşamlarının da qeyd olunması bununla bağlıdır. İnanca görə isə bəzi xalqlarda çərşənbə günü ağır gün hesab olunur. Dədə-babalarımız da bayrama dörd Çərşənbə qalmış onu şadyanalıqla qarşılayırlar. Astronomiya və münəccimliyin böyük bilicisi, dahi Azərbaycan şairi Şeyx Nizami Gəncəvi "Yeddi gözəl" poemasında həftənin çərşənbə axşamını bayramın rəmzi olan qırmızı rəngdə verib.

Novruz şənliklərinin əsas personajları Kosa və Keçəldir. Keçəllə Kosanın məzhəkəli tamaşası müqabilində yazla qışın bir-birilə mübarizəsi əks olunur. Qış öz yerini yaza təhvil vermək istəmir, yaz isə bu yeri əldə etməyə çalışır.

Tamaşa zamanı kosanın "ölüb-dirilməsi" əski inanclardan gəlir. Şaman ritualı zamanı da fiziki hərəkəti ilə ruhi hərəkətin çulğalaşmasının şahidi oluruq. Bu oxşarlıq həm də Kosanın geyimində özünü göstərir. Belə ki, Kosanın geyimindəki bəzi əlamətlər - qurşağındakı və boynundakı zınqrovlar, başındakı şiş papaq, əynindəki tərsinə çevrilmiş kürk qam-şaman geyiminin rəmzlərindəndir. Səməni sözünün etimologiyasını da məhz şamanlarla bağlayırlar. Belə ki "sümen/suma" sözü Altayca və monqolca "şaman" mənasını daşıyır. Səməni də bolluğun, bərəkətin, cücərmiş torpağın rəmzidir. Səmənidən hazırlanmış halva insana enerji verir. Səməninin göyərdilməsi Novruz bayramının əsas mərasimlərindəndir. İnanca görə, səməni ailəyə, elə ruzu, xeyir-bərəkət, güc gətirir. Səməni müqəddəs hesab etdikləri üçün saralandan sonra da onu axar suya axıdırlar, arxasınca isə şirni atırlar.

Mərasim yeməkləri, eləcə də Novruz şirniyyatları xalqın əməli bilikləri, zövqü, təsərrüfat məşğuliyyəti, mifoloji dünyagörüşü ilə əlaqədar yaranmışdır. Novruz şirniyyatlarında türk kosmoqonik dünyagörüşünün simvolları öz əksini tapmışdır. Novruzda ayın rəmzi kimi şəkərbura, badambura, günəşin rəmzi kimi qoğal, şəkərçörəyi simvolizə olunur. Paxlavanın romb şəklində bişirilməsi də türk kosmoqonik təfəkkürü və sakral bilikləri özündə birləşdirən mifoloji dünyagörüşlə bağlıdır. Paxlavanın romb şəklində verilməsi ulduzun rəmzidir. Lakin Şumerlərdə Günəş romb işarəsi ilə verildiyi üçün günəşin simvolu kimi də götürülür. Bundan başqa, romb inkişaf və doğuluşun rəmzi olub, sakral mənasına görə qadın başlanğıcıyla bağlanır. Paxlavanın mərkəzinə qoyulan fındıq, qoz, badam bu oxşarlığı gücləndirir. Bəzi bölgələrdəki inanclara görə, paxlavanı məhz qadın bişirməlidir, bunu isə doğuluşla bağlılıq ilə əsaslandırırlar. Bayram günü aş bişirilməsi, qazan asılması isə həmin evin il boyu bərəkətli olması inancından doğur.

Yumurta boyamaq da qədim adətlərdəndir. Yumurtanı həyatın rəmzi kimi götürürlər. Qırmızı rəngə boyanmış yumurtalar torpağın dirilməsi, canlanmasını ehtiva edir. Yumurta döyüşdürülməsi isə iki dünyanın-qışla yazın, soyuqla istinin, xaosla-kosmosun mübarizəsini əks etdirir. Bəzi mənbələrdən aydın olur ki, yumurta döyüşdürülməsi zamanı onun çiy olması əsas şərtlərdəndir. Hazırda isə yumurta döyüşdürülməsi zamanı bişmiş, rəngli yumurtalardan istifadə olunur. İnanca görə, bişmiş yumurta onu yeyən insanlara həyat verir.

Tonqal üstündən atlanmaq isə qədimdən gələn bir ritualdır. Onu çox zaman Tanrılara qurban vermə ritualı ilə eyniləşdirirlər. Bununla da insanlar tonqal üstündən atlanaraq öz ağırlıqlarını, uğursuzluqlarını tonqalda yandıracaqlarına inanarlar.

Etnoqrafik materiallardan aydın olur ki, lap qədimlərdən Azərbaycanın əksər bölgələrində hələ ili tamam olmamış mərhuma Novruz bayramı ərəfəsində "qara bayram" verilirdi. Bu mərasimdə halva, plov və digər ətli xörəklər bişirilir, qadınlar qəbiristanlığa gedir, matəm səciyyəli səhnələr icra edir, gətirdikləri "pay"ı - səməni, şirniyyatı qəbrin üsütünə qoyurdular. Bununla həm mərhumun xatirəsini yad etdiklərinə, həm də qarşıdan gələn bayramın daha yaxşı keçməsinə inanardılar. Bu mərasim bir çox bölgələrimizdə hələ də icra olunmaqdadır.

Azərbaycan xalqı milli dəyərlərə, milli ənənələrə sadiqdir. Azərbaycan dövlətini bu dəyərlər üzərində quran Ümummilli Lider Heydər Əliyev Novruz bayramını xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomen kimi qiymətləndirmişdir: "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir". Bu dəyərlər Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursunda davam etdirilir. Cənab Prezident Novruz bayramını birmənalı şəkildə milli xüsusiyyətlərin - milli varlığın qorunma vasitəsi hesab edir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti, İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin sentyabrında Novruz bayramı YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi isə martın 21-ni "Beynəlxalq Novruz Günü" elan etmişdir.

***Səhər Hidayət qızı Orucova,***
***filologiya elmləri doktoru,***
***professor***

# Birinci tur başa çatdı...

## Fransada martın 22-də bələdiyyə seçkilərinin ikinci turu keçiriləcək

Fransa Daxili İşlər Nazirliyi martın 15-də ölkə üzrə keçirilən bələdiyyə seçkilərinin birinci turunun yekun nəticələrini açıqlayıb. "La France Insoumise" qəzetinin məlumatına görə, Parisdə gedən "mübarizədə" solçu sosialist namizəd Emmanuel Qrequar səslərin 38 faizini, Respublikaçılar Partiyasının namizədi Raşida Datin isə 25,46 faizini toplayıb. Digər namizədlər Sofiya Çikiro, Pyer-İv Burnazel, ultra-mühafizəkar Rekonket partiyasından Sara Knafo isə daha az səs toplayıblar.

Marseldə də sol təmayüllü partiya öndə olub. Belə ki, solçu mer Benua Payan cüzi üstünlüklə Milli Assambleyadan olan rəqibinə qalib gəlib - səslərin faizi müvafiq olaraq 36,7 və 35,02 faiz olub. Respublikaçılar Partiyasının namizədi Martin Vassal 22,41 faiz, "Əyilməz Fransa" partiyasından Sebastyan Deloqu isə 11,94 faiz səs yığıb. Lionda istefa verən ekoloq mer Qreqori Duses 37,36 faiz səslə seçkidə liderlik edib. Ardınca radikal sağçı namizəd Jan -Mişel Aulas 36,78 faiz səslə ikinci olub. Fransa Tabesiz Partiyasının namizədi Anais Belouassa - Şerif 10,41 faiz səs toplaya bilib. Tuluzada da sağçı namizəd açıq şəkildə liderlik edib - Jan -Lyuk Mudenks səslərin 37,23 faizini yığa bilib. Solçuların dəstəklədiyi Fransua Pikemal isə 27,56 faiz səslə ikinci olub.

### Bələdiyyələr necə seçilir?



Qeyd edək ki, 35 min bələdiyyə üzrə 48,7 milyon seçici səsverməyə hüququna malik olub. Fransa yerli seçkilər iki turlu seçki sisteminə əsaslanır. Əgər heç bir namizəd birinci turda mütləq səs çoxluğu qazana bilməsə, növbəti bazar günü ikinci tur keçirilir. Ən azı 10 faiz səs toplayan namizədlərin yarışda qalmasına icazə verilir - buna baxmayaraq 10 faizdən az səs toplayan namizədlərin digər həmkarlarını dəstəkləməsi də müşahidə olunur.

Fransada bələdiyyə seçkilərində bələdiyyə şuralarının üzvləri - bələdiyyə məclis üzvləri seçilir. Bu məclis üzvləri daha sonra öz sıralarından bələdiyyə şurasına rəhbərlik edən meri, eləcə də onun müavinlərini seçirlər. Məclis üzvləri, mer və müavinlər altı illik müddətə xidmət edirlər. 2014-cü ildən bəri əhalisi 1000 nəfərdən çox olan bələdiyyələr birbaşa seçki sistemini tətbiq ediblər. Nəticədə, Fransada seçicilərin 80 faizindən çoxu eyni vaxtda təkcə bələdiyyə şuralarına deyil, həm də bələdiyyələrarası idarəetmə orqanlarına nümayəndələr seçir. Bu məqsədlə seçki bülletenində ikili namizəd siyahısından istifadə olunur.

### Əməkdaşlıq perspektivləri...




Siyasi ekspertlər martın 22-də ikinci turu keçiriləcək bələdiyyə seçkilərini 2027-ci ilin aprelinə planlaşdırılan prezident seçkiləri üçün vacib "barometr" sayır. Nəticələrin gözlənilməzliyi isə bir çox amillərə bağlanır - ilk növbədə, ölkə sakinlərinin son dövrlərdə baş verən siyasi təlatümlərdən yorulması göstərilir. Bu mənada ikinci tur öncəsi gərgin danışıqların və ittifaqların gedəcəyi proqnozlaşdırılır. Siyasi partiyaların ittifaqlar barədə razılığa gəlmək və yekun namizəd siyahılarını yerli hakimiyyət orqanlarına təqdim etmək üçün 48 saatı var - son tarix çərşənbə axşamı, saat 18:00-dır. Seçkinin nəticələri ilə bağlı isə artıq bəzi liderlər mövqelərini açıqlayıb. Milli Birliyin lideri Jordan Bardella solçuların dəstəklədiyi namizədlərə qarşı "əsl sağçı siyahılar" hazırlamaq üçün əməkdaşlığa çağırış edib. Sosialist lider Olivye For Sosialist Partiyası ilə France Insoumise arasında milli ittifaqın mümkünlüyünü istisna etməyib. France Insoumise-in milli koordinatoru Manuel Bompard isə ifrat sağçıların qalib gəlmək şansının olduğu seçkilərdə "antifaşist cəbhəsi"nin yaradılmasını istəyib.

### Gələcək üçün "imtahan"...

Bu arada, Prezident Emmanuel Makronun Dirçəliş partiyasının baş katibi Qabriel Attal nə ifrat sağçıları, nə də radikal solçuları dəstəkləməyəcəyini bəyan edib. Nəzərə alsaq ki, 2027-ci il seçkilərində Emmanuel Makron namizəd kimi iştirak edə bilməyəcək, bu seçkinin də nəticələri Milli Birlik partiyasının hakimiyyətə gəlmək şansının böyük olduğunu göstərir. "Le Monde" qəzetinin yanvar ayında dərc etdiyi ictimai rəy sorğusuna görə, fransızların təxminən 42 faizi Milli Birlik Partiyasının ideyalarını dəstəkləyib.

"Le Monde" yazır ki, bu seçki siyasi qüvvələr üçün ictimai dəstəyi qiymətləndirmək, ittifaqları sınaqdan keçirmək və imiclərini cilalamaq üçün bir fürsətdir.

Ekspertlərin fikrincə, Bordo, Qrenobl, Lil, Monpelye, Nant, Renn, Strasburq və Tuluza kimi şəhərlərdə Sosialist-Yaşıl blokunun qalib gəlmək şansı yüksəkdir, Lion, Nitsa və Tulonda isə sağçıların mövqeyi daha güclüdür. Paris, Marsel və Havrda ciddi mübarizə gedəcək - birinci turun nəticələri də bunu təsdiqləyir. "Politico" isə yazır ki, Fransadakı bələdiyyə seçkiləri bütün Avropa üçün rəmzi məna daşıya bilər.

***SADİQ***

# Dəhşətli müharibə cinayətləri - mülki insanların faciələri

Dünyanın sakit nizamı pozulub. Yaxın Şərq, Şərqi Avropa və bir sıra regionlar dəhşətli müharibələrin ölüm saçan alovuna bürünüb. Hətta ayrı-ayrı güc mərkəzlərindən nüvə təhdidləri də eşidilməkdədir.

Adətən, müharibələri siyasilər başlayır və hərbçilər həyata keçirirlər. Ənənəvi olaraq isə müharibələrin əsas ağırlığı sadə mülki insanların üzərinə düşür. Onların rahat həyatları pozulur. Müharibələrdə ev-eşiklərini itirən ailələrin qaçqın, məcburi köçkün vəziyyətinə düşmələri, səfalətlə, aclıqla üzləşmələri, uşaqların, qocaların, qadınların, gənclərin həyatlarını itirmələri, sözün əsl mənasında, ürək ağrıdır.

**Heç bir perspektivi olmayan qaçqınlar və məcburi köçkünlər**

Birləşmiş Millətlər Təşkilatı (BMT) mənfi təsirlər, xüsusən də müharibələr səbəbindən qaçqın və məcburi köçkünlərlə bağlı həyəcan təbili çalır. Bu insanların heç bir günahı olmasa da, onlar məşəqqətli həyata məhkumdurlar. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) yeni rəhbəri Barham Saleh keçirdiyi ilk brifinqdə bildirib ki, qaçqınların müdafiəsi mövcud beynəlxalq sistemin əsas prinsipi olaraq qalır. O, 2026-cı ildə 1951-ci il Qaçqınlar Konvensiyasının 75-ci ildönümünün qeyd ediləcəyini xatırladıb və dövlətlərin ona riayət etmək öhdəliklərinin indi əvvəlki dövrlərdən daha vacib olduğunu vurğulayıb.

Bu gün dünyada 42,5 milyon qaçqın da daxil olmaqla, təxminən 117 milyon məcburi köçkün var. Onların əksəriyyəti illər və ya onilliklər ərzində qeyri-sabit şəraitdə yaşayıb və bu insanların heç bir real perspektivi yoxdur. Bəzi hallarda onlar təhlükəsiz şəraitdə yaşayırlar, lakin milli sosial sistemlərdən kənarlaşdırılıb və humanitar yardıma ümid bəsləməyə məcburdurlar. Salehin sözlərinə görə, bu vəziyyət labüd hesab edilməməlidir.

Ali komissar strateji bir məqsəd müəyyən edib: növbəti onillikdə uzunmüddətli köçkünlük şəraitində yaşayan və humanitar yardımdan asılı olan qaçqınların sayını əhəmiyyətli dərəcədə azaltmaq lazımdır. O qeyd edib ki, buna nail olmaq üçün həmin kateqoriyadan olan insanların könüllü qayıdışını, yerli inteqrasiyanı və məskunlaşmanı təşviq etmək, humanitar fəaliyyəti inkişaf və sülh quruculuğu proqramları ilə daha sıx əlaqələndirmək, özünü təminetmə imkanlarını genişləndirmək və qaçqınların milli sistemlərə daxil edilməsini gücləndirmək lazımdır.

Saleh köçkünlük zonalarına ilk səfərləri barədə danışıb. O, Keniyada qaçqınların işləməsi, təhsil alması və cəmiyyətə inteqrasiyasına imkan verən siyasətlərin faydalarını, Çadda isə Sudandakı münaqişədən qaçmağa davam edən insanların ehtiyaclarının miqyasını və məhdud resurslarını gördüyünü bildirib. Türkiyə və İordaniyada isə məqsəd suriyalıların vətənlərinə təhlükəsiz və könüllü qayıtması üçün şərait yaratmaqdır. O, vurğulayıb ki, göstərilən nümunələr bu gün həyatları xilas etmək və köçkünlüyün gələcəkdə “sonsuz çıxılmaz vəziyyətə” çevrilməsinin qarşısını almaq üzrə BMT QAK-ın ikiqat məsuliyyətini nümayiş etdirir.



BMT QAK-ın rəhbəri, həmçinin resursların azalması fonunda Ali Komissarlığın effektivliyini, hesabatlılığını və maliyyə şəffaflığını artırmaq məqsədi daşıyan müstəqil idarəetmə icmalını elan edib. O, daha aydın prioritetlər, nəticələrə əsaslanan göstəricilər və real vaxt rejimində büdcə monitorinqinin təkmilləşdirilməsi istiqamətində iş aparılacağı ilə bağlı söz verib.

**İranda ürək ağrıdan mənzərə - üzərində qan olan məktəbli çantaları**

Fevralın 28-də başlayan İran-ABŞ-İsrail müharibəsi hərbi infrastrukturun dağıdılması ilə yanaşı, mülki insanların da hava zərbələrindən ziyan çəkmələri və humanitar ehtiyacların kəskin şəkildə artması ilə müşayiət olunur. Yaxın Şərqdə eskalasiyanın gərginləşməsi fonunda BMT mülki əhalinin qorunmasına çağırıb, həmçinin artan humanitar ehtiyaclar və köçkünlük barədə xəbərdarlıq edib. Qurumun İnsan Hüquqları Ofisinin (OHCHR) sözçüsü Ravina Şamdasani İranın cənubundakı Minab şəhərində qızların ibtidai məktəbinə edilən hücumu xatırladıb. Burada məktəbli qızlar və işçilər də daxil olmaqla 160-dan çox insan həlak olub, onlarla insan yaralanıb.

“Uşaqlar, kiçik qızlar dərs gününün əvvəlində öldürüldü. Üzərində qan olan çantalar - bu, tamamilə dəhşətli mənzərədir”, - deyə o bildirib. Sözçü əlavə edib: “Bu münaqişənin dağıdıcı nəticəsini, ümidsizliyi, mənasızlığı və vəhşiliyin mahiyyətini əks etdirən görüntülərdir”.

Onun sözlərinə görə, bu cinayəti araşdırmaq məsuliyyəti məhz hücumu həyata keçirən qüvvələrin üzərinə düşür. “Biz bu hadisəni araşdırmaq və təqsirkar şəxslərin məsuliyyətə cəlb olunmasını təmin etmək üçün mümkün olan hər şeyi etməyə çağırırıq”, - deyə Şamdasani vurğulayıb.

“Əgər zərbələrin xüsusi olaraq mülki şəxslərə yönəldiyi və ya ayrı-seçkilik edilmədiyi müəyyən edilərsə, bu, beynəlxalq humanitar hüququn ciddi şəkildə pozulması hesab ediləcək və müharibə cinayəti kimi qiymətləndirilə bilər”, - deyə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının nümayəndəsi qeyd edib.

Şamdasani, həmçinin qeyd edib ki, İran və İsraildən əlavə, döyüşlər evlərin, müəssisələrin, hava limanlarının və enerji infrastrukturunun dağıdıldığı 12 başqa ölkəyə də təsir edib. Livanda “Hizbullah” silahlı hərəkatı münaqişəyə qoşulub və bu da İsrailin zərbələrinə səbəb olub. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) sözçüsü Babar Baloç vurğulayıb ki, münaqişədən təsirlənən ölkələrin çoxu artıq milyonlarla qaçqına və məcburi köçkünə ev sahibliyi edir. O əlavə edib ki, zorakılığın daha da artması və yeni didərginlik dalğaları köçkünləri qəbul edən icmalara dözülməz bir yük yarada bilər.

Bu arada, regionda artan döyüşlər səbəbindən yükdaşımalarda yaranan ciddi fasilələr artıq humanitar təchizat marşrutlarına təsir göstərir.



BMT-nin Ümumdünya Ərzaq Proqramının (ÜƏP) Yaxın Şərq və Şimali Afrika üzrə regional direktoru Samer Əbdül-Cabir bildirib ki, Hörmüz boğazı və Qırmızı dəniz vasitəsilə təchizatda yaranan fasilələr bu marşrutlardan asılı olan əməliyyatların əksəriyyətinin xərclərini artıracaq. “Dənizlərin münaqişə zonasına çevrilməsi və hava məkanının bağlanması ilə Türkiyə, Misir, İordaniya və Pakistan kimi digər ölkələrdəki tədarükçülərimizin şəbəkələrini uyğunlaşdırmağı və istifadə etməyi, quru dəhlizlərini dəstəkləməyi düşünürük”, - deyə o bildirib.

ÜƏP nümayəndəsi əlavə edib ki, Misir limanları və Süveyş kanalı təşkilatın Qəzza zolağında, eləcə də Sudandakı əməliyyatlarını dəstəkləmək üçün əsas mərkəzlərdir. “Bizdə yalnız 10 günə kifayət edəcək qədər buğda unu var və ərzaq bağlamaları proqramlarımızı yalnız 2 yarım həftə dəstəkləyəcək... Qəzza zolağına davamlı və genişlənə bilən qida axınını da təmin etməliyik”, - deyə Əbdül-Cabir sözlərini yekunlaşdırıb.

**Livanda yaranan böyük daxili köçkünlər ordusu**

Livana qarşı hərbi əməliyyatlar başlanandan bəri 800 mindən çox insan evini tərk edib və daxili köçkünə çevrilib. Livanın cənubundan təxminən 100 min məcburi köçkün ölkədəki kollektiv sığınacaqlara yerləşdirilib və qeydiyyatdan keçirilib.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığından bildirilir ki, İsrail-Livan silahlı toqquşmasının genişlənməsi səbəbindən sərhəd bölgəsinə yaxın 50-dən çox kəndin əhalisi təxliyə olunub. Qurum, həmçinin 11 minə yaxın livanlının Suriyaya keçdiyini diqqətə çatdırıb.

Livanın sosial işlər naziri Huneyn əs-Seyyid ölkədə 171 sığınacaq açıldığını və köçkünlərin bu sığınacaqlarda yerləşdirildiyini bildirib.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarı təkcə bir sutka ərzində 100 min insanın evlərini tərk etmək məcburiyyətində qaldığını açıqlayıb. BMT QAK-ın Livan üzrə nümayəndəsi Karolina Lindholm Billinq Cenevrədə jurnalistlərə açıqlamasında Livan hökumətinin onlayn platformasında qeydiyyatdan keçmiş köçkünlərin ümumi sayının 667 minə çatdığını bildirib. Billinq vurğulayıb ki, bir gündə 100 min insanın artması 2024-cü ildəki əvvəlki münaqişə dövrləri ilə müqayisədə köçkünlüyün daha sürətli və daha dağıdıcı tempini göstərir.

Eyni zamanda, sürətlə artan köçkünlük dalğası fonunda sığınacaq, qida və tibbi ləvazimatlara ehtiyac kritik həddə çatıb. Livan hökuməti və beynəlxalq yardım təşkilatları yüz minlərlə məcburi köçkünün mülki şəxs üçün təhlükəsiz zonalar yaratmağa çalışsa da, davam edən hücumlar təxliyə əməliyyatlarına və humanitar yardımın çatdırılmasına mane olur.

Həyatını itirən livanlıların sayı da artmaqda davam edir. Livan Səhiyyə Nazirliyinin məlumatına əsasən, indiyədək İsrailin Livana qarşı həyata keçirdiyi hücumlar nəticəsində ölənlərin sayı 850-yə çatıb. Bildirilib ki, yaralıların sayı isə 2100-ü keçib.

**Avropada İkinci Dünya müharibəsindən sonra ən böyük köç**

Şərqi Avropada uzanan müharibə fonunda Aİ ölkələrində Ukrayna qaçqınlarının sayı artmaqda davam edir.

Bunu BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Avropa İttifaqı ölkələrində yaşayan ukraynalıların məşğulluğuna həsr olunmuş məruzəsində yer alan yenilənmiş məlumatlar təsdiqləyir. Məruzə Rusiyanın Ukraynaya qarşı genişmiqyaslı hərbi müdaxiləsindən sonra Aİ ölkələrinə sığınmış Ukrayna vətəndaşlarını əhatə edir.

BMT-nin yenilənmiş məlumatlarına görə, 2026-cı il yanvarın 16-na olan vəziyyətə əsasən, Avropa İttifaqı ölkələrində ukraynalı qaçqınların sayı 5 milyon 349 min nəfər olaraq qiymətləndirilib (dekabrın ortalarında aparılan əvvəlki hesablamalara görə bu göstərici 5 milyon 311 min idi). Məruzədə, həmçinin qeyd olunur ki, dünya üzrə ukraynalı qaçqınların ümumi sayı 5 milyon 898 min nəfərdir.

Sənəddə bildirilir ki, Aİ ölkələrində yaşayan ukraynalı qaçqınların 57 faizi daimi işlə təmin olunub - onlar ya muzdlu işçi kimi çalışır, ya özünüməşğulluqla məşğuldur, ya da biznes qurublar. Ən yüksək məşğulluq göstəriciləri Ukrayna ilə birbaşa sərhədi olan ölkələrdə qeydə alınıb:

- Estoniyada qaçqınların 72 faizi,
- Macarıstanda 71 faizi,
- Polşada 68 faizi,
- Bolqarıstanda 67 faizi,
- Çexiyada 66 faizi çalışır.

Avropa İttifaqının Qərb ölkələrində isə qaçqınların yarıdan bir qədər çoxu çalışır. Ən aşağı məşğulluq göstəriciləri Danimarka və Almaniyada (hər ikisində 39 faiz), Norveçdə (37 faiz) və İsveçrədə (29 faiz) qeydə alınıb. Aİ üzvü olmayan Böyük Britaniyada ukraynalı qaçqınların 69 faizi işlə təmin olunub.

Məruzədə daxili köçkünlərlə bağlı dəqiqləşdirilmiş məlumatlar da təqdim olunur. Daxili köçkünlər dedikdə, atəşə tutulma və ya işğal səbəbindən öz doğma evlərini tərk etməyə məcbur qalan Ukrayna vətəndaşları nəzərdə tutulur. 2025-ci ilin sonuna olan məlumata görə, Ukraynada 3,7 milyon daxili köçkün qeydə alınıb. Müqayisə üçün qeyd olunur ki, ötən ilin iyul ayında bu statusa malik olan ukraynalıların sayı 3 milyon 340 min nəfər idi.

Ukraynadan köç İkinci Dünya müharibəsindən sonra Avropada ən böyük və ən sürətli qaçqın hərəkatıdır. Münaqişənin başlanmasından dörd gün sonra UNHCR artıq 500 000 qaçqını hesablayıb. Avropa İttifaqı 4 mart 2022-ci il tarixində müharibədən qaçan ukraynalılar üçün müvəqqəti müdafiə sistemi qurub. Qaçqınlar əsasən azyaşlı uşaqları olan qadınlardır. Kişilərin mütləq əksəriyyəti müharibədədir.

**Miqrantlar cinayətkar deyillər, onlar qurbanlardırlar**

Bu arada BMT-nin Baş katibi Antonio Quterreş Baş Assambleyanın qeyri-rəsmi iclasında üzv dövlətlərə Təhlükəsiz, Nizamlı və Mütəmadi Miqrasiyaya dair Qlobal Saziş üzrə son ikiillik hesabatı təqdim edib. Baş katibin sözlərinə görə, 2024-cü ildə təxminən 304 milyon insan miqrasiya edib və bu, dünya əhalisinin 3,7 faizinə bərabərdir. Miqrant uşaqların nisbəti 12-14 faiz arasında olub, yəni, təxminən 37-42 milyon nəfər təşkil edir.

Quterreş üzv ölkələrin daimi nümayəndələrinə bildirib ki, hesabatda bir həqiqət açıq şəkildə ortaya qoyulur: “Miqrasiya böhran deyil. Əsl böhran onu birlikdə idarə edə bilməməkdir”.

Qlobal Saziş heç bir ölkənin miqrasiyanı təkbaşına idarə edə bilməyəcəyini vurğulayır, xüsusən də beynəlxalq ictimaiyyət müharibələr, iqlim dəyişikliyi, demoqrafik proseslər və ya iqtisadi transformasiya kimi çətinliklərlə üzləşdiyi bir vaxtda birgə fəaliyyət daha aktual hala gəlir.

Baş katib qeyd edib ki, “insan mobilliyi” dünyanı dərindən formalaşdırsa da, qlobal reaksiya çox vaxt qorxu, bölünmə və ambisiyalar ilə idarə olunub. O deyib: “Qitələr boyunca miqrantlar siyasi xal qazanmaq üçün istifadə olunur və bu, dağıdıcı humanitar nəticələrə gətirib çıxarır. Onlar ictimai müzakirələrdə insanlıqdan kənarlaşdırılır. Miqrantların iqtisadiyyata və cəmiyyətlərə verdiyi böyük töhfələrə baxmayaraq, onlar bəşər ailəsinin hər bir üzvünə məxsus hüquqlardan və ləyaqətdən məhrum edilirlər”.



BMT-nin Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Aralıq dənizinin mərkəzi kimi dəniz keçidlərinin ən ölümcül marşrutlar arasında qaldığını təsdiqləməsindən bir gün sonra dərc olunmuş hesabata görə, Qlobal Sazişin qəbulundan bəri 48 mindən çox miqrant həlak olub və ya itkin düşüb.

Hesabatda bildirilir ki, bir çox ölkə müqavilənin qəbulundan bəri mühüm addımlar atıb, o cümlədən müntəzəm yolları genişləndirmək, əmək mobilliyi təşəbbüslərini gücləndirmək, dənizdə axtarış-xilasetmə işlərini təkmilləşdirmək, eləcə də daha təhlükəsiz qayıdışları və reinteqrasiyanı dəstəkləmək istiqamətində işlər görülüb. Lakin irəliləyiş qeyri-bərabərdir və bugünkü reallıqlar fonunda yetərli deyil.

Baş katib miqrasiya idarəçiliyinin “hüquqlara əsaslanan, gendərə və uşaqlara həssas” olmasının vacibliyini bildirib. O qeyd edib ki, görülən tədbirlər, həmçinin milli suverenliyə və insan ləyaqətinə hörmətə əsaslanmalıdır.

Baş katib Quterreş bildirib ki, may ayında keçiriləcək Beynəlxalq Miqrasiya İcmalı Forumu ölkələri qətiyyətli və ölçülüb-biçilmiş şəkildə hərəkətə keçməyə təşviq etməlidir. O, əməkdaşlıq vasitəsilə miqrasiya idarəçiliyinin sabit, dinc və çiçəklənən bir dünya üçün nəinki mümkün, həm də vacib olduğunu vurğulayıb: “Miqrasiya bəşəriyyətin tarixi qədər qədim bir hekayədir: cəsarət, dözümlülük və qarşılıqlı fayda amillərinə əsaslanır. Bizim vəzifəmiz onun heç vaxt ölüm və ümidsizlik hekayəsinə çevrilməməsini təmin etməkdir”.

*Mübariz ABDULLAYEV*

# Zelenski Trampla niyə görüşmək istəyir?

## Yaxın Şərq böhranı Ukrayna probleminin həllini beynəlxalq gündəmdən çıxarmamalıdır



N.BAYRAMLI

ABŞ və İsrailin İrana hücumları fonunda Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar diplomatik danışıqlar səngiyib. Bununla belə, rəsmi Kiyev problemin beynəlxalq birliyin gündəmindən düşməməsinə çalışır. Prezident Volodimir Zelenski deyib ki, Ukrayna və ABŞ komandaları sanksiya siyasəti və təhlükəsizlik zəmanətləri ilə bağlı fəal məsləhətləşmələr aparırlar. Lakin əsas məsələlərin həlli üçün iki prezident arasında şəxsi görüş zəruridir. O bildirib ki, dialoq hazırda danışıqlar qrupu səviyyəsində davam edir. Zelenskinin sözlərinə görə, komandalar sanksiya təzyiqi də daxil olmaqla, geniş məsələləri müzakirə edirlər. Prezident qeyd edib ki, Trampla Rusiyaya qarşı sanksiyaları və ya ABŞ məhdudiyyətlərinin yumşaldılmasını müzakirə etməyib. Bununla belə, o, ABŞ lideri ilə birbaşa əlaqəyə ehtiyac olduğunu deyib. "Danışıqlarla bağlı bir çox problemimiz var. Düşünürəm ki, indi prezidentlər görüşməlidir. Çünki komandalar işləyir, amma həll olunmamış bəzi məsələlərimiz var. Komandalarımız görüşümüz üzərində daha çox çalışmalıdırlar", - deyə Ukrayna Prezidenti vurğulayıb.

**"ABŞ-ın Rusiya nefti ilə bağlı qərarı arzuolunmaz presedent yarada bilər"**

Avropa İttifaqı (Aİ) da Ukrayna probleminin həllinin beynəlxalq gündəmdən çıxmamasının tərəfdarıdır. Ukraynadakı vəziyyətlə bağlı gələcək müzakirələrdən danışan Aİ-nin ali nümayəndəsi Kallas Yaxın Şərqə olan diqqətin Ukraynadakı vəziyyətdən yayındırmamasının vacibliyini vurğulayıb. "ABŞ-ın Rusiya neftinin tədarükü ilə bağlı sanksiyaların yumşaldılması arzuolunmaz presedent yarada bilər, çünki indiki vəziyyətdə Rusiyanın müharibəni davam etdirmək üçün maliyyə resurslarını məhdudlaşdırmaq vacibdir. Hörmüz boğazının bağlanması da Rusiyanın xeyrinə olmaqla ona bu müharibəni maliyyələşdirməyə imkan verir" - deyə, o bəyan edib.



Rusiya isə hazırkı beynəlxalq münasibətlərdəki böhrandan istifadə edərək Ukraynaya hücumlarını artırır. Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Aleksandr Sırski özünün "Telegram" kanalında yazdığı məlumata görə, Ukrayna Silahlı Qüvvələrinin Ukraynada hücum əməliyyatlarının ən yüksək intensivliyi Zaporojye istiqamətində - Qulyaypole rayonunda qeydə alınır: "Növbəti günümü səfərdə keçirdim, Zaporojye istiqamətində, Stepnoqorsk, Primorsk, Şerbakov, Qulyaypole, Zelyoni, Varvarovka rayonlarında döyüş əməliyyatları aparan hissələrdə işlədim". Onun sözlərinə görə, Rusiya qoşunları bu istiqaməti əsas hədəf sayır və ora xeyli miqdarda qüvvə cəmləşdirir. "Qulyaypole rayonunda hücum əməliyyatlarının intensivliyi digərləri ilə müqayisədə əhəmiyyətli dərəcədə yüksəkdir" - deyə, paylaşımda qeyd olunur.

**Rusiya hücumları artırıb**

Xatırladaq ki, Sırski hazırda aktiv döyüş əməliyyatlarının davam etdiyi "Cənub" əməliyyat zonasına səfər edib. Onun sözlərinə görə, Ukraynanın müdafiə qüvvələri cənub istiqamətində müəyyən hədləri qoruyub saxlayır, tədricən irəliləyir və yaşayış məntəqələrinin azad edilməsi uğrunda döyüşlər aparır. Həmçinin daha əvvəl bildirilib ki, Rusiya qoşunları son həftələrdə cəbhənin ayrı-ayrı sahələrində hücum əməliyyatlarını aktivləşdiriblər. Zaporojye istiqamətində hücumlar artıb, burada həmlələrin intensivliyi bəzi yerlərdə cəbhənin ən gərgin sahələrindən birinin - Pokrovsk rayonunun göstəricilərini üstələyib.

Belə bir şəraitdə Kiyev ABŞ ilə dron istehsalına dair müqavilə bağlamaq istəyir. Lakin sənəd hələ imzalanmayıb. Ukrayna Prezidenti Volodimir Zelenski isə qarşı tərəfin mövqeyini dəqiq izah edə bilməyib. "Prezident Trampla heç bir sənəd imzalamamışıq. Niyə belə olduğuna dair cavabım yoxdur. Bu, sonradan baş verə bilər, amma əmin deyiləm", - deyən Zelenski amerikalıların həmişə Ukrayna dronlarına maraq göstərdiyini vurğulayaraq vurğulayaraq söyləyib: "Mən heç vaxt eşitməmişəm ki, ABŞ üçün bizim dronlar maraqlı deyil. Mən əksini eşitmişəm: ABŞ çox maraqlıdır". Volodimir Zelenski əlavə edib ki, ABŞ-a təxminən 35-50 milyard dollar dəyərində dron istehsalı müqaviləsi imzalamağı təklif edib. Dövlət başçısı, həmçinin xatırladıb ki, Ukrayna artıq 3 ölkə - Danimarka, Böyük Britaniya və Almaniya ilə birgə silah istehsalına uğurla başlayıb.

**Ali Radanın bir qrup deputatı mandatdan imtina edir**

Bu arada Ukrayna Ali Radasının onlarla üzvü deputat səlahiyyətlərinə xitam verilməsi barədə ərizə təqdim edib. Bu barədə xalq deputatı Aleksandr Yurçenko "Novini.Live" efirində bildirib: "Mənə məlumdur ki, Ali Radanın onlarla deputatı artıq ərizə verib, getmək, mandatdan imtina etmək istəyir. Onlar təxminən 50-60 nəfərdir". Söhbətin hakim "Xalqın xidmətçisi" Partiyasının nümayəndələrindən gedib-getmədiyi ilə bağlı dəqiqləşdirici suala Yurçenko təsdiqləyici cavab verib. Deputatın sözlərinə görə, səbəblər, ehtimal ki, parlamentin uzun kadensiyası, yorğunluq və 50 min qrivna (1,1 min ABŞ dollarından çox - red.) məbləğindəki aşağı maaşdır.

Məsələ ilə bağlı Ukrayna Prezidenti Volodimir Zelenski jurnalistlərlə görüşündə bildirib ki, istefa vermək istəyən parlament üzvləri ya Ukrayna Ali Radasında çalışmalı, ya da cəbhədə xidmət etməyə getməlidirlər. Onun sözlərinə görə, bəzi parlament üzvləri tammiqyaslı işğalın başlanğıcından bəri mandatlarından imtina etmək istəyiblər. Lakin hərbi vəziyyət dövründə Ukrayna parlamenti tam fəaliyyət göstərməyə davam etməlidir. "Onlara qarşı fərqli istəklər və münasibətlər ola bilər, amma biz hərbi vəziyyət şəraitindəyik və dövlətimizi müdafiə etməliyik. Buna görə də parlament üzvləri ya Ukrayna qanunlarına uyğun olaraq parlamentdə xidmət etməli olacaqlar, ya da mən parlament üzvlərinin cəbhəyə gedə bilmələri üçün səfərbərlikdə dəyişikliklər haqqında qanunu müzakirə etməyə hazıram. Əgər dövlətə parlamentdə xidmət etmirsinizsə, onda cəbhədə xidmət edin. Mənim yanaşmam budur", - deyə Zelenski söyləyib.

Prezident, parlament üzvlərinin hərbi xidmətə qoşulmalarına imkan verəcək səfərbərlik qanunvericiliyinə mümkün dəyişiklikləri parlamentlə müzakirə etməyə hazır olduğunu vurğulayaraq deyib ki, müharibə dövründə seçkilərin keçirilməsi mümkün deyil.

# Ana qonan kəpənək

## İvan Turgenevin "Asya" povesti haqqında

əvvəli ötən sayımızda

Beləliklə, qırx beş yaşlı dvoryan cənab N.N. xatırlayır: "İyirmi il bundan əvvəl mən Reyn çayının sol sahilində Z. adlı kiçik bir alman şəhərində yaşayırdım. Mən tənhalıq axtarırdım..." Şəhər əzəmətli Reynin iki verstliyində salınıb, çayın o tayındakı L. şəhəri bundan bir az böyükdür.

Bir axşam N.N. tələbə bayramına tamaşa eləmək üçün çayı adlayıb qarşı yaxadakı şəhərciyə gedir. Orada o, iki həmvətəniylə - Qagin soyadlı cavan oğlanla, bir də Asya adlı qarasaç, qaragöz ərköyün qızla təsadüfən tanış olur. Qagin qəhrəmanımızdan cəmi bir yaş kiçikdir, Asyanın isə on yeddi yaşı var. Qagin Asyanı bacısı kimi qələmə verir, hərçənd bu təsbit N.N.-də şübhə doğurur, çünki bacı-qardaş bir-birinə qətiyyən oxşamır. Onlar qəhrəmanımızı qaldıqları evə şam yeməyinə dəvət eləyirlər.

Ertəsi gün N.N. Qaginin rəsmlərinə baxmaq üçün onlara yollanır. Asya bu vaxt qədim feodal qəsrinin xarabalıqlarını dolaşmaqdadır. Qaginlə N.N. onun arxasınca gedirlər. Qızın uçurumun başındakı divar qalıqlarının üstünə çıxdığını görəndə qəhrəmanımız onu ehtiyatlı olmağa çağırır, qardaşı isə deyir ki, irad bildirmək lazım deyil, yoxsa inadından bir az da yuxarı dırmaşacaq. N.N. düşünür ki, Asya uşaq hücətiylə onları təəccübləndirməyə çalışır, qızın davranışı ona həm xoş gəlir, həm də bir az pərtlik gətirir.

Asya aşağı enəndə qardaşı onu yüngülcə danlayır, onda qız özünə ciddi görkəm verir. Gəzintidən sonra Asya dostlaşdığı alman qadının yanına gedir, axşamacan geri qayıtmır. Qagin qonağı yola salanda onlar da həmin evə dönürlər. Pəncərədən baxan Asya cəngavər sevgilisinə eyvandan çiçək atan məşuqə roluna girib qardaşına bir gül budağı tullayır, sonra da həmin gülü qəhrəmanımıza verməyi tapşırır.

N.N. qaldığı evə həyəcanlı qayıdır. Qaginin ona bəzi çətinliklər üzündən Rusiyaya qayıda bilmədiklərini dediyini dönə-dönə xatırlayıb bu qənaətə gəlir ki, Asya onun bacısı deyil.

***

İki həftə boyunca N.N. Qaginlərin qaldığı evə gedib Asyanı diqqətlə müşahidə eləyir. Onun fikrincə, Asya kübar mühitdə böyümüş xanım qız deyil, onun davranışlarında nəsə kübarlığa uyuşmayan vəhşi əlamətlər var. Təbiətcə utancaq olsa da, Asya özbaşına, cəsarətli qız təsiri bağışlamağa çalışır. Qaginin qızla çox mehriban, nəzakətli davranması təhkiyəçinin əminliyini bir az da artırır ki, onlar əsla bacı-qardaş deyillər.

Bir axşam N.N. təsadüfən Qaginlə Asyanın söhbətinə qulaq müsafiri olur. Asya göz yaşı içində Qaginə dönə-dönə etirafda bulunur ki, ondan savayı heç kəsi sevməyi ağlından keçirmir, sonra da atılıb qollarını onun boynuna dolayır. N.N. şübhəsinin doğrulduğundan məmnun qalsa da (çünki bu, onun ağlının sərrast çalışdığını sübuta yetirir), tanışlarının onu aldatmasından pərişan olur.

Ertəsi gün səhər N.N. təkbaşına dağlara çıxır. Qaginlərlə görüşməyə həvəs göstərmir, özünü inandırır ki, bunun tək səbəbi tanışlarının zadəgana yaraşmayan rəftarının onda doğurduğu pərtlikdir. Bütün gün azad təbiətdən, zəhmətkeş kənd camaatının asudə həyatından zövq alır. Evə dönəndə Qagindən məktub gəldiyini görür, tanışı ondan onlara baş çəkməyi xahiş eləyir.

Sabahı Qagin ona Asyanın cavan ömrünün tarixçəsini danışır...

Qaginin anası doğuşdan sonra öldüyünə görə atası onu körpəykən kəndə aparır. Böyüyəndə oğlan Peterburqa oxumağa gedir, təhsilini başa vurub qvardiyada qulluğa girir. Kəndə hər baş çəkəndə atasını qayğılı, kədərli görür. İyirmi yaşını tamamlayan Qagin növbəti dönüşündə evdə on yaşlarında bir qız uşağıyla rastlaşır. Atası onu inandırır ki, Asyanı yetim olduğuna görə himayəsinə götürüb. Bir neçə il keçmiş ata ölüm yatağına düşəndə sirrini oğluna açır: Asya onun qulluqçudan olan qızıdır, oğlunun anası öləndən sonra kişi həmin qadınla birgə yaşayıb.

Asyanın iki yaşı olanda onun da anası ölüb, atası onu öz evinə gətirməyə məcbur qalıb. Nökər-qaravaş Asya ilə evin xanımı kimi davranıb. Atası onu çox sevsə də, qızının nazını çəkməyib, bu səbəbdən özünü onun yanında günahkar sanıb. Bu ikili münasibət Asyanın özünə vurğun, başqalarına inamsız bir qız kimi böyüməyinə rəvac verib. Atasının vəsiyyətinə əsasən Qagin bacısını himayəsinə götürüb, bundan sonra yavaş-yavaş qız ona alışmağa, qardaşını sevməyə başlayıb.

Peterburqda Qagin Asyanı qızlar pansionuna qoyub. Asya yaxşı oxusa da, məktəb yoldaşlarına qaynayıb-qarışmayıb. Bacısının on yeddi yaşı tamam olanda Qagin xidmətdən istefa verib, Asya ilə birlikdə xarici səfərə çıxıb...

***

Qagini dinləyəndən sonra N.N. Asyanın danışıqlarını, davranışlarını daha yaxşı anlamağa başlayır. Birlikdə gəzməyə gedirlər, Asya gənclik şövqüylə çırpınan ürəyini quş kimi uçurmağa, qəlbini böyük işlər dalınca buyurmağa, Puşkinin Tatyanasıyla rəqabətə girməyə can atır:

"- Mən Tatyananın yerinə olmaq istərdim, - Asya eləcə dalğın-dalğın sözünə davam elədi, sonra qəfil gümrahlaşıb: - Danışın, - dedi.

Ancaq mənim fikrim ayrı yerdəydi. Mən təpədən-dırnağa parlaq gün işığına qərq olmuş, tamam sakitləşib mülayimləşmiş Asyaya baxırdım. Ətrafımızda, ayağımızın altında, başımızın üstündə nə vardısa, hamısı - göylər, yerlər, saf sular sevinclə, fərəhlə parıldaşırdı; elə bil hava özü də nura boyanmışdı.

Mən səsimi ixtiyarsız yavaşıdıb:

- Bir baxın, nə yaxşıdır! - dedim.

- Elədir, yaxşıdır, - Asya mənə baxmadan sakitcə cavab verdi. - Əgər ikimiz də quşa dönsəydik, necə pərvazlanar, necə uçardıq... Mavi göyün dərinliyinə baş vurardıq... Amma hayıf ki, quş deyilik.

- Biz də qanad çıxara bilərik, - mən dedim.

- Necə?

- Yaşayarsız, görərsiz. Elə duyğular var, adamın ayaqlarını yerdən üzür. Qəm eləməyin, sizin hələ qanadınız çıxacaq..."

Sonra Asya qəhrəmanı birgə uçuşu imitasiya eləmək məqsədiylə vals oynamaq üçün evlərinə aparır.

Ertəsi gün Qaginlərin qaldığı yerə gələndə qəhrəman düşünür ki, Asyanı yalnız dünən gerçəkdən tanıya bilib. Asya qəmli görünür, fikirdən gecə yata bilməyib. Özü haqqında deyir ki, yaxşı təlim-tərbiyə görməyib, heç bir xüsusi qabiliyyəti yoxdur, buna görə də cansıxıcı adam sayılmalıdır. N.N. qızın bu sözlərini etirazla qarşılayır: xeyr, o, çox oxuyub, yaxşı təhsil alıb, ağıllıdır... Bununla belə həmin axşam Asyanın eyni açılmır, qəhrəmana qəribə nəzərlə baxır: "Yadınızdamı, dünən qanadlardan danışırdınız? Mənim qanadım çıxıb - uçmağa yerim yoxdur". Qagin onun əhvalını dəyişmək üçün vals oynamağı təklif eləsə də, qız bunu kəskin etirazla qarşılayır. Qayıdanbaş N.N. özünü inandırmağa çalışır ki, Asya onu sevir.

***

Səhəri N.N. Asyadan məktub alır: qız onu xarabalığa gedən yolun üstündəki kilsənin yanına görüşə çağırır, yazır ki, bu gün ehtiyatsızlığa yol verib, görüşəndə hər şeyi yerli-yataqlı söyləyəcək...

Bu vaxt Qagin özünü başılovlu N.N.-in qaldığı evin qapısından içəri salır, bacısının bu sabah ona etirafda bulunduğunu, Asyanın N.N.-ə vurulduğunu həyəcanla xəbər verir. Ürəyini boşaldandan sonra Asya qardaşına yalvarıb ki, onu buralardan aparsın. Qagin də bunu ən doğru çıxış yolu sayır, ancaq qərar verməmişdən bir məsələni dəqiqləşdirmək istəyir: təsadüfən cənab N.N. də qəlbində Asyaya rəğbət bəsləmir ki? Başqa sözlə, onun Qaginin bacısıyla evlənmək fikri yoxdur ki?

Söhbət çözələndikcə gərgin bir şəkil alır. N.N. deyir, əlbəttə, Asya onun xoşuna gəlir, ancaq belə taleyüklü suala düşünüb-daşınmadan, ayaqüstü cavab verməK çətindir. O, alicənab aristokrat kimi Asyanın onu görüşə çağırdığını qardaşından gizlətmir. Qagin ondan qorxur ki, Asyanın başına bir fəlakət gələ bilər, qız hətta ölə bilər. Uzun söhbətdən sonra belə razılaşırlar: N.N. qızın çağırışına gedib məsələləri orada ayırd eləsin. Qagin evə belə bir qəti qənaətlə qayıdır ki, N.N. Asya ilə evlənən deyil, bu qənaətini onun özüylə də bölüşür. Qəhrəman özü isə Asyanın ona aşiq olmasına bir yandan sevinirsə, o biri yandan həyəcan keçirir, sümüyü bərkiməmiş on yeddi yaşlı ərköyün qızla evlənməK ona çöçün gəlir.

Reynin o tayına adlayanda Asyanın qasidi qəhrəmanımıza yeni ismarış gətirir: görüş kilsənin yanında yox, alman qadının evində olacaq. Asya onu yarıqaranlıq otaqda qarşılayır, pəncərənin qabağında oturub eşiyə baxan qızı əsməə tutur. N.N. əvvəlcə ona "Anna Nikolayevna" deyə müraciət eləyir (əsl adı belə olur), amma qızdan səs çıxmır; ürəyi uçunan qəhrəman puçurlamış dodağına "Asya" kəlməsini gətirəndə qız gözlərini qaldırıb ona baxır. Artıq Asya bütün varlığıyla ona təslim olmağa hazırdır. N.N. ehtiras dumanını aralayıb qaranlıqda əlhavasına qızın titrəyən vücudunu tapır. Sonra birdən ayılıb, qardaşına ürəyinin sirrini açdığına görə Asyanı qınamağa, hətta danlamağa başlayır. Məsələni şişirdib-böyüdən qəhrəman getdikcə daha da əsəbi görkəm alır, bir növ namuslu centlmen roluna girir: "İndi daha hər şey bitdi! Artıq biz ayrılmalıyıq. Siz yetişməkdə olan bir hissin coşmasına imkan vermədiniz..."

davamı növbəti sayımızda



F.Uğurlu

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Oyanış, dirilmə, canlanma!




Bu gün Novruzun ən təntənəli mərasimlərindən biri İlaxır - Torpaq çərşənbəsidir. Bu çərşənbə xalq arasında “Yer çərşənbəsi”, “Çərşənbə-suri” də adlanır. Torpaq ünsürü insan yaradılışının əsasını təşkil edir. Eyni zamanda torpaq həm türk mifologiyasından, həm də milli-mənəvi dəyərlərimizdən qaynaqlanaraq müqəddəs hesab olunur.

Bu çərşənbə torpağın və özündən əvvəlki 3 mühüm ünsürün - su, od və yelin oyanması, əkinçilik həyatının başlanmasına işarədir. Sonuncu çərşənbə artıq yazın gəlməsinə daha az vaxtın qaldığına işarədir.

**Bayrama necə başlamaq lazımdır?**

İlaxır çərşənbəyə bir neçə gün qalmış evlər təmizlənər. Deyilənlərə görə, bu bayramda təzə paltar geyinmək uğur gətirər. Küsülülər barışar, nəhs danışılmaz, içki içmək, nalayiq işlər görmək olmaz. Sonuncu çərşənbə günü insanın əməli, niyyəti, nəfsi də təmizlənmiş olar.

**Niyyətlər axşamı...**

İlaxır çərşənbə axşamı cavan qızlar bir yerə yığışırlar. Bir qaba su tökürlər, əllərindəki üzükləri çıxarıb saçlarına salırlar. Niyyət tutub üzüyü suyun üstündən keçirirlər. Üzük fırlanmağa başlayır və qabın divarlarına dəyir. Üzük neçə dəfə qaba dəyirsə, deməli, həmin qızlar o yaşda da gəlin köçəcəklər.

İnanclara görə, axır çərşənbə gecəsi niyyət tutub yatmaq lazımdır. Sonra isə gecə yarısı yuxudan durub şamı yandırmaq və onu götürüb güzgüyə yaxınlaşırlar. Deyilənə görə, bunu edən qızlar güzgüdə gələcək nişanlısını görə bilərlər.

Bundan başqa ilaxır çərşənbə axşamı ana uşaqlarının başından tük götürür və axar suya atır. Bir qab həmin yerdən su götürür və uşaqlarının üstünə çiləyir. Bu su təmizlik, sağlamlıq, paklıq rəmzi hesab olunur və həmin il uşaqlar xəstələnmir.

## Bu gün sonuncu çərşənbədir...

**İlaxır çərşənbə günü evində olmayan şəxs...**

İlaxır çərşənbədə hər bir evdə bayram xonçası hazırlanar. Xonçanın ortasına səməni qoyular və ətrafına müxtəlif şirniyyatlar, qoğal, şəkərbura, paxlava, fındıq, qoz, iydə, innab, kişmiş, badam, şabalıd, boyanmış yumurtalar və s. düzülər. Süfrəyə yeməklərin şahı sayılan plov (bayram aşı) gətirilər. Bayram günü hər kəs çalışar ki, öz evində olsun və ailəsi ilə birlikdə bayram süfrəsində otursun. İnanclara görə, ilaxır çərşənbə günü öz evində olmayan şəxs 7 il ilaxır çərşənbəni evində olmaz. İlaxır çərşənbə günü nişanlı qızlara, yeni ailə qurmuş gənclərə də bayram xonçası və pay aparılır. Bayram payı müxtəlif hədiyyələr, meyvələr, şirniyyatlar və geyimlərdən ibarət olur.

Yeri gəlmişkən, ilaxır çərşənbədə yerinə yetirilən bəzi Novruz adət-ənənələrimiz ilk dəfə “Dəli Kür” filmində səhnələşdirilib. Həmin səhnə Şamaxının Dədəgünəş kəndində çəkilib. Beləliklə, Azərbaycan kino filmi tarixində ilk dəfə Novruz bayramı bu filmdə ekranlaşdırılır. Bugünədək həmin səhnə filmin ən maraqlı və gözəl anlarından biri kimi yaşayır.

Filmin bir neçə epizodunda Novruz bayramı ilə bağlı kadrlar-şagirdlərin müəllimlərinə bayram payı gətirməsi, rus müəllimlə yumurta döyüşdürmə, kənd uşaqlarının “Dirədöymə” oyunaları, bacadan şal atmaları və s. təsvir olunub.

**Adət-ənənələrimiz**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan folklorşünas Məhəmməd Məmmədov bildirib ki, torpaq çərşənbəsində şənlik və mərasimlər özünəməxsusluğu və rəngarəngliyi ilə seçilir. Onun sözlərinə görə, insanlar sübh tezdən su üstünə çıxar, arzusunu suya danışar və ondan imdad diləyərdilər: “Axşam isə tonqallar alovlanar, üzərlik yandırılar, bacalardan torbalar sallanar, qulaq falı qurular, oyunlar oynanılardı. İlaxır çərşənbələrdə ev və çöl ilə bağlı çoxlu mərasim xarakterli adət-ənənələr var. Təmizlik elə aparılmalıdır ki, həyət-bacanın, ev-eşiyin təmizlənməsi, səliqə-sahmanı, gözəlliyi, Novruz üçün hazır olsun və nəzərə çarpsın”.

M.Məmmədov ilaxır çərşənbədə icra olunan bəzi ayin nümunələrini xatırladıb: “Torpaq çərşənbəsində gecə dan qaranlığında, yəni sübhün gözü açılarkən axar su üstünə gedilər. Suya salam verib “ağrılığım-uğurluğum tökül” deyə 3 dəfə suyun üstündən atlanırlar. Sonra sudan bir səhəngə doldurub gətirib həyət-bacaya, ev-eşiyə, paltar-palaza, mal-qara üstünə səpilir. Axır çərşənbədə un çuvalının ağzını açıq qoyarlar ki, bərəkət payalananda bağlı qalmasın.

Axır çərşənbə gecəsi cavan qızlar xeyli aralıdan arxası qapıya durub ayaqlarındakı ayaqqabının sağ tayını geriyə atarlar. Ayaqqabının burnu qapıya tərəf düşsə, demək yaxın vaxtda ailə quracaq. İlaxır çərşənbə axşamında bir neçə parça kömürü, bir ovuc duzu və bir-iki qara pulu kuzəyə qoyub damdan atarlar. Deyilənə görə, kömür qara günün, duz gözüşorluluğun, acgözlüyün, qara pul da yoxsulluğun nişanəsidir. Onları kuzəyə qoyub damdan atmaqda niyyət qara gündən, gözüşorluqdan, yoxsulluqdan qurtulmaq arzusudur.

İlaxır çərşənbədə baltanın küpü ilə meyvə ağaclarının kötüyünə bir-iki dəfə yüngülcə vurub deyərlər: “Nə yatmısan, oyan, bərəkət payını götür”. Deyilənə görə, həmin il ağacların məhsulu bol olar”.

Folklorşünasın sözlərinə görə, ilaxır çərşənbədə havanın necə olmasından asılı olmayaraq, insanlar həmişə tarlaya çıxar, əkinə əl qoyub küt qoşar, bunu edə bilməyənlər isə heç olmasa torpağı 2-3 dəfə belləyərdilər. Burada məqsəd torpağı yuxudan oyatmaq və artıq əkinçilik vaxtının yetişdiyini xəbər verməkdir: “İlaxır çərşənbədə qapıpusma və başqa fallar var, insanlar ürəklərində niyyət edib qapı pusarlar. Niyyətləri ilə evdən eşitdikləri sözlər arasında müəyyən uyğunluqlar tapmağa çalışarlar. Bu uyğunluq tapılarsa, o zaman arzularının reallaşacağına inanarlar.

Bu bayramda gənclər səhərə qədər yatmaz, şənlənib, oxuyub-oynayarlar. Bu sonuncu çərşənbədə insanlar qorxuya, çətinliklərə, uğursuzluqlara sinə gərərək yeni ilə təzə bir ruh, sağlam əhval ruhiyyə ilə çıxmaq arzusunda olarlar”.

*Yeganə BAYRAMOVA*

# Sağlam yuxu üçün nə etməliyik?

*Yeganə BAYRAMOVA*

Yuxu beynimizin normal fəaliyyəti üçün ən vacib fizioloji proseslərdən biridir. Hər kəs gücünü bərpa etmək və fəaliyyətini davam etdirmək üçün istirahətə ehtiyac duyur. Məlumdur ki, yuxu bədənin özünü yenilədiyi vaxtdır və az istirahət insan orqanizmində daha çox problem deməkdir. Lakin bəzən işlərin çoxluğu, bəzən də ekran qarşısında saatlarla vaxt keçirmək kimi səbəblərdən yuxumuzu yetəri qədər almırıq.



Araşdırmalara görə, insanın öz gücünü tam bərpa etməsi üçün 12 saat istirahət və yuxu lazımdır. Amma vacib deyil ki, 12 saatınızı yuxuya həsr edəsiniz. 8 saat normal yuxu kifayətdir, lakin əsas məqamlardan biri saat neçədə yatmaqdır.

**Düzgün yuxu saatı...**

Tədqiqatlar göstərir ki, yetkin insanlar orta hesabla 6-8 saat yatmalıdır. Bir çoxları gecə saatlarında yuxuya gedib, səhər 9-10-da oyanaraq, 8 saatı başa vurduğundan arxayın olur. Lakin yuxu hesablamasına görə, insanın saat neçədə yatmasından asılı olaraq onun yuxu saatı hesablanır. Belə ki, axşam saat 19-21 arası yatdıqda, bu müddət 6-7 saat yuxuya bərabərdir.

**Bu saatlarda yatsanız...**

Ən qiymətli və uzun yuxu vaxtı saat 21-23 arasıdır. Əgər bu saatlarda yatsanız, sonra yatmasanız belə, elə hesab edilir ki, 6-7 saat yatmısınız. Çünki məhz bu saatlar arası yuxuda orqanizm gücünü bərpa edir, beyin təmizlənir, hormonlar qaydasına düşür. Düzgün vaxtda yatmadıqda xroniki yuxusuzluq və yorğunluq sindromu başlayır.

**Yuxu niyə önəmlidir?**

Milyonlarla insan üzərində aparılan epidemioloji tədqiqatların nəticəsi əsasında bu sadə fakta varmaq olar: nə qədər az yatarsan, ömrün bir o qədər qısalar. Yəni qocalmamaq və mümkün qədər sağlam qalmaq istəyirsinizsə, gecələr yaxşı yatmalısınız.

Yuxusuzluğun əsas səbəblərindən biri işlərin çoxluğudur. Bir çox insan işlərini tamamlamaq üçün yuxusuz qalmağı seçsə də, bu, insanın uzun müddət fəaliyyət göstərməsinə əngəl yaradır. Yuxusuzluğun səbəb olduğu və nəticədə məhsuldarlığı aşağı salan bəzi təsirlər bunlardır:

**Yavaş reaksiya**

Bədən kifayət qədər istirahət etmədikdə beyin yorğun olur, buna görə də insan konsentrasiyanı asanlıqla itirə və ya ləng davrana bilir. Bədən hərəkətlərinin yavaşlaması isə öz növbəsində ətrafdakı dəyişikliklərə reaksiya sürətini azaldır. Bunlar eyni zamanda insanın karyerasına da ciddi zərər verə bilər.

**Səhv etməyə meyillilik**

Yetəri qədər yatmadıqda səhv etmək ehtimalı normal yuxu alan insanlarla müqayisədə xeyli yüksəkdir. Bu, istənilən fəaliyyətdə problem demək olsa da, xüsusən iş yerində mühüm mərhələləri idarə edərkən olduqca risklidir.

**Keyfiyyətli yuxu...**

Özünüzü müntəzəm olaraq yorğun və ya yuxulu hiss edirsinizsə bu, kifayət qədər keyfiyyətli yuxu almadığınıza işarədir. Problemi həll etmək üçün bir çox yol var. Əvvəlcə bir yuxu rejimi qurmaq lazımdır. Çox gec olmayan bir yuxu saatı seçdikdən sonra bu vaxta qədər sakitləşmək üçün bəzi məşğuliyyətlər tapıla bilər. Məsələn: kitab oxumaq, meditasiya etmək və s.

**Nə üçün qarabasmalar və kabuslar görürük?**

Niyə yuxu görürük sualına cavab olaraq bir çox fərqli nəzəriyyələr irəli sürülüb. Mütəxəssislərin fikrincə, yuxular emosional travmalarımızla üzləşmənin bir yoludur. Oyaqkən üzləşə bilmədiyimiz, yaxud üzləşməkdən qorxduğumuz hisslərlə yuxuda olarkən qarşılaşırıq.

Bəzən o qədər gözəl yuxular görürük ki, kaş heç oyanmasaq və ya dərhal yatıb onları bir daha görsək, deyə düşünürük. Bəzən də kabus dolu yuxudan dik atılaraq oyanırıq. Bu, gün ərzində əhvalımıza mənfi təsir edir. Kabus görməyimizə səbəb kimi gün ərzində yaşadığımız stress, yanlış qidalanma və zərərli vərdişlərdən istifadə kimi göstərilir. Deyilənə görə, yuxu utopiyadırsa, kabus əsl distopiyadır. Amerika Yuxu Dərnəyinin (ASA) araşdırmalarına görə, insanların 5 faizi daimi kabuslar gördüyü üçün yuxuya getməkdən qorxurlar.

Yeri gəlmişkən, martın 17-si Ümumdünya Yuxu Günüdür. Bu gün ilk dəfə 2008-ci ilin martında Ümumdünya Səhiyyə Təşkilatının qərarı ilə qeyd edilib.

*İdman*

## Azərbaycanlı pilot “Formula 4” testlərini uğurla başa vurub

Azərbaycanlı pilot Davin Cəfərov motorsport karyerasında növbəti mühüm addımı ataraq Portuqaliyanın Portimao şəhərində yerləşən və dünya üzrə məşhur olan “Autodromo Internacional do Algarve” trasında ikinci “Formula 4” test sessiyasını da uğurla tamamlayıb. O, test həftəsonu ərzində “McLaren”, “Mercedes”, “Aston Martin” və digər tanınmış komandalarla əlaqəli pilotlarla eyni trası bölüşərək Avropanın ən çətin və tələbkar yarış treklerinden birində həm təcrübə qazanıb, həm də sürətini




nümayiş etdirib.

Sessiyalar qarışıq hava şəraitində - yağışlı və quru trasın növbələşdiyi vəziyyətdə baş tutub. Buna baxmayaraq, Cəfərov bütün çıxışlarını heç bir qəza olmadan başa vurub. Bununla belə, 16 yaşlı pilot müəyyən səbəblərdən bu ay Barselonada keçiriləcək “Formula Winter Series” final yarışında iştirak edə bilməyəcək. Buna baxmayaraq, gənc pilot hazırlıqlarını böyük əzmlə davam etdirir. O, hazırda simulyator məşqləri, fiziki və psixoloji hazırlıq üzərində aktiv şəkildə çalışır ki, bu da müasir yarış pilotu üçün əsas elementlər hesab olunur.

## Joan Laporta 3-cü dəfə “Barselona”nın prezidenti seçilib

Laporta 68,18 faiz göstərici ilə birinci olub. O, seçkilərdə yeganə rəqibi Viktor Fontdan (29,78 faiz) iki dəfədən çox səs toplayıb. Qeyd edək ki, Joan Laporta üçüncü müddətə “Barselona”nın prezidenti seçilib. O, daha əvvəl kluba 2003-cü ildən 2010-cu ilə və 2021-ci ildən 2026-cı ilə qədər rəhbərlik edib. Laporta iyulun 1-dən yenidən vəzifəsinin icrasına başlayacaq və 2031-ci ilədək Kataloniya klubunun prezidenti olacaq.



Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5106
Sifariş: 379
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova